Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

29 NOYABR 2019-cu il

№ 212 (4110)

Qiymәti 40 qәpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# RUSİYA MEDİASINDA ERMƏNİ FAŞİST NJDENİN ÜSTÜNƏ YÜRÜŞ - AZƏRBAYCAN PREZİDENTİNİN VALDAYDAN BAŞLATDIĞI PROSES DƏRİNLƏŞİR...

■ səh. 5 ■



■ səh. 3 ■

## Milli Məclisin buraxılması barədə qərar verildi




«Hamısı yalandır, bizi bizdən çox sevən yoxdur» - Prezidentin bəyanatının Azərbaycan üçün əhəmiyyəti...

■ səh. 3 ■

Ermənilər Türk dünyası eposunun məşhur amazonkalarını da saxtalaşdırdı...

■ səh. 11 ■



Ermənistanda faşist Njde barədə yeni əfsanə - «Njde olmasaymış, guya Rusiya 102-ci bazaya təyyarə uçura bilməzmiş»...

■ səh. 6 ■

Rusiya-Azərbaycan münasibətlərində dinamikanın daha bir göstəricisi - Azərbaycan diasporunun bəxti açılır, Elkaponenin təşkilatı kölgədə qalır...

■ səh. 4 ■

Azərbaycan Rusiyadan yeni hərbi texnikaların alışına hazırlaşır

■ səh. 7 ■

İşğal siyasəti Ermənistanı "xəritədən silir..."

■ səh. 9 ■

Azərbaycanda islahatların sürəti ilə elektron ticarətə keçid arasında uyğunsuzluq var...

■ səh. 12 ■

UNESCO-nun 43-cü Bakı zirvəsi əleyhinə ermənilərin növbəti təxribat cəhdi...

■ səh. 10 ■

Zaxarova jurnalistlərin qarşılıqlı səfərlərindən danışdı - " xalqlar arasında əlaqələrin qurulmasına yardım etmək niyyətinin göstəricisidir"

■ səh. 2 ■

Əmək... Nazirliyinin 480 min manatlıq işini yerinə yetirməyən şirkətdə həbslər aparıldı...

■ səh. 15 ■

■ səh. 8 ■

Hədəf daha qüdrətli, daha rifahlı Azərbaycandır!



■ səh. 5 ■

Azərbaycanda yeni müxalifəti necə yaratmaq olar - indiki konstruktiv müxalifətin yenidən qurulması, ya köklü surətdə yeninin yaranması...



■ səh. 13 ■

Bakıdakı bütün universitetlər Xocasən gölünün yanına köçürüləcək



■ səh. 14 ■

Rus sektorunun birinci sinfinə uşaqların imtahanla qəbulu, hətta "kəsilməsi" doğru praktika sayıla bilərmi...



■ səh. 15 ■

"Sədərək" bazarında avtomobilləri yararsız hala düşmüş sürücülər çarəsiz durumda...



# Prezident İlham Əliyev Slovakiyanın Xarici və Avropa işləri nazirini qəbul edib

**Prezident İlham Əliyev noyabrın 28-də Slovakiyanın Xarici İşlər və Avropa naziri Miroslav Layçakın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev deyib ki, bizim uğurla əməkdaşlıq edə biləcəyimiz çoxsaylı məsələlər var:**

"Sözsüz ki, biz yaxşı siyasi əlaqələrə malikik. Lakin biz hələ də çox aşağı olan ticarət dövriyyəmizin artması üzərində diqqəti cəmləşdirməli və bunu etmək üçün yollar axtarmalıyıq. Zənnimcə, yollardan biri biznes dairələrimiz arasında daha fəal qarşılıqlı əlaqə ola bilər. Bəlkə də müəyyən mərhələdə biz potensialımızı təqdim etmək üçün birgə biznes forum, bəzi başqa tədbirlər təşkil edə bilərik. Çünki ticarət dövriyyəmizin aşağı olmasının səbəblərindən biri məlumat çatışmazlığıdır. Bizim daha çox ünsiyyətimiz, potensialla bağlı daha çox məlumatımız olsa, əminəm ki, bunun müsbət təsiri olacaq. Əlbəttə, düşünürəm ki, ölkələri birləşdirən layihələrlə bağlı məsələlər maraq kəsb edə bilər. Bildiyiniz kimi, hazırda Azərbaycan nəqliyyat sahəsində körpülərin yaradılması ilə fəal məşğul olur. Biz artıq öz dəmir yolu sistemimizin Gürcüstan və Türkiyə vasitəsilə Avropa və Xəzər hövzəsi ətrafında olan tərəfdaşlarımızla birləşdirilməsi sahəsində çox yaxşı uğur qazanmışıq. Biz artıq Çindən və Mərkəzi Asiya ölkələrindən yükləri qəbul etməyə, tranzit daşımalara başlamışıq və onun həcmi artır. Ona görə də düşünürəm ki, biz yük daşımalarının artmasına birgə necə töhfə verəcəyimizlə bağlı nəqliyyat rəsmiləri arasında məsləhətləşmələrə başlaya bilərik.

Sözsüz ki, enerji təhlükəsizliyi avropalı tərəfdaşlarla əməkdaşlığın ənənəvi mövzusudur. Biz bütün əsas transmilli enerji layihələrimizi uğurla həyata keçirmişik və çox tezliklə - bir neçə günə bizim təbii qaz fiziki olaraq artıq Avropa İttifaqının sərhədində olacaq. Bu, bir sıra ölkələr və həmçinin Avropa İttifaqı arasında hərtərəfli əməkdaşlıq sayəsində əldə olunmuş çox nəzərəçarpan nailiyyətdir. Bildiyiniz kimi, Azərbaycan və Avropa İttifaqı ənənəvi olaraq Cənub Qaz Dəhlizi Məşvərət Şurasını keçirir. Biz artıq 5 iclas keçirmişik. Növbəti iclas gələn ilin fevralında keçiriləcək. Əməkdaşlığın bu formatı çox səmərəlidir.

Əlbəttə ki, tərəfdaşlığımızla əlaqədar bir çox başqa məsələlər də var. Viza rejiminin liberallaşdırılması sayəsində indi Slovakiyadan gələnlər Azərbaycana asan giriş əldə edirlər. Eşitdəndə ki, siz ölkəmizdə səfirlik açırsınız, çox şad oldum. Bu, çox müsbət göstəricidir. Mən, həmçinin öz komandamıza eyni istiqamətdə hərəkətə başlamaq tapşırığını vermişəm. Beləliklə, bizim də təqdimatımız olacaq və bu, əlbəttə ki, əməkdaşlıq üçün daha çox imkanların tapılmasına kömək edəcək.



ATƏT məsələlərinə gəldikdə, sözsüz ki, münaqişə regionun böyük problemidir, region üçün böyük təhlükədir. Əfsuslar ki, hesab edirəm, bu il əldən verilmiş fürsətlər ili olmuşdur. Bunun başvermə səbəbi isə Ermənistanın beynəlxalq hüququn normalarına əməl etmək, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası və ATƏT tərəfindən qəbul olunmuş qətnamələri icra etmək istəməməsi ilə bağlıdır. Bu il ölkə başçıları səviyyəsində, həmçinin Xarici İşlər nazirləri səviyyəsində danışıqların bir neçə mərhələsi olmuşdur. Növbəti görüş tezliklə sizin ölkənizdə olacaqdır. Ümid edirik ki, növbəti il daha məhsuldar olacaq. Çünki münaqişənin ən tez müddətdə həll olunması Azərbaycanın və əminəm ki, Ermənistanın maraqlarına xidmət edir. Lakin bu məsələdə hər hansı bir irəliləyişə nail olmaq üçün yerlərdə praktiki addımlar atılmalıdır. Birinci addım Azərbaycanın beynəlxalq səviyyədə tanınan sərhədlərinin, ərazilərinin deokkupasiyasının başlanılmasıdır. Əlbəttə, biz bir çox başqa məsələləri də müzakirə edəcəyik, lakin düşünürəm ki, başlanğıc üçün bu qədər yetər".

Slovakiyanın Xarici işlər və Avropa naziri Miroslav Layçak deyib ki, Bakıda keçirəcəyi vaxtın ən önəmli hissəsi burada Slovakiya səfirliyinin açılışı olacaq:"Bununla biz vədimizi yerinə yetiririk və ikitərəfli münasibətlərimizdə yeni mərhələnin açılışını edirik. Fakt ondan ibarətdir ki, biz ölkənizin böyük potensialına bələdik. Artıq neçə ildir heç bir şübhəmiz yox idi ki, burada təmsilçiliyimiz olmalıdır. Nəhayət, zəruri resursları tapa bildik və bu gündən etibarən biz rəsmi olaraq burada olacağıq. Mən bizim ən təcrübəli səfirlərimizdən biri olan və adı mənim adıma çox oxşayan Layçakı bura göndərmişəm".

Layçak Azərbaycanın regiondakı strateji mövqeyini çox yüksək qiymətləndirdiklərini bildirib.

Görüşdə Azərbaycan-Slovakiya hökumətlərarası birgə əməkdaşlıq komissiyasının yaradılması, kənd təsərrüfatı, əczaçılıq, enerji, informasiya-kommunikasiya texnologiyaları və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

## Maliyyə Bazarlarına Nəzarət Palatası ləğv edildi, əmlakı isə Mərkəzi Banka verildi

**Prezident İlham Əliyev maliyyə xidmətləri bazarında tənzimləmə və nəzarət sisteminin idarə edilməsinin təkmilləşdirilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası ləğv edilsin və Azərbaycan Respublikasının qanunlarında maliyyə bazarlarına nəzarət orqanının müəyyən edilmiş səlahiyyətləri, o cümlədən onun maliyyə xidmətləri bazarında lisenziyalaşdırma, tənzimləmə və nəzarət, investorların və maliyyə xidmətləri istehlakçılarının hüquqlarının qorunması sahəsində vəzifə və hüquqları, habelə əmlakı Azərbaycan Respublikasının Mərkəzi Bankına verilsin.

Mərkəzi Banka tapşırılır ki, bir ay müddətində "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Banklar haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "Sığorta fəaliyyəti haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının qanunlarında və digər qanunvericilik aktlarında zəruri dəyişikliklərin edilməsi barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; müvafiq təhvil-təslim işlərinin həyata keçirilməsi üçün bütün zəruri tədbirləri həyata keçirsin.

Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll edəcək.

## Lavrov Bakıya rəsmi səfərə gəlir

**Rusiyanın Xarici işlər naziri Sergey Lavrov Bakıya rəsmi səfərə gələcək.**

"Trend"in məlumatına görə, rusiyalı nazirin səfəri ilə bağlı anonsu ölkə Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova verib.

S.Lavrovun Azərbaycana rəsmi səfərinin gələn həftə baş tutacağı gözlənilir.

Səfər çərçivəsində S.Lavrovun ölkə rəhbərliyi ilə, eləcə də xarici işlər naziri Elmar Məmmədyarovla görüşləri nəzərdə tutulub.

Görüşlər zamanı regional təhlükəsizlik problemləri, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin həlli perpektivləri də tərəflərin diqqət mərkəzində olacaq.

# Türkiyə səfiri Qarabağ münaqişəsinin tez bir zamanda həlli üçün daha çox səy göstərilməsinin vacibliyini bildirdi

**Türkiyə Dağlıq Qarabağ münaqişəsinin tez bir zamanda həlli üçün daha çox səy göstərilməsini istəyir. "Trend"in məlumatına görə, bunu Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral deyib.**

O bildirib ki, ATƏT Avropada təhlükəsizlik və sabitliyin təmin olunması üçün yaradılmış vacib beynəlxalq təşkilatdır:

"ATƏT-in vacib tapşırıqlarından biri Dağlıq Qarabağ münaqişəsinin həllidir. Biz bunun üçün daha çox səy göstərilməsini istəyirik".



Səfir təəssüflə qeyd edib ki, uzun illər keçməsinə baxmayaraq, münaqişə hələlik həll olunmayıb: "Problemin həlli üçün parametrlər məlumdur. BMT və ATƏT-in irəli sürdüyü parametrlər münaqişənin beynəlxalq hüquqa uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini nəzərdə tutur. Amma hələ də Azərbaycan əraziləri işğaldan azad edilməyib və ona görə də biz ATƏT-in bu istiqamətdə fəaliyyətini qənaətbəxş hesab etmirik. Amma hazırda biz münaqişənin həlli üçün vacib mexanizm olan ATƏT-i dəstəkləyirik və ümid edirik ki, ATƏT Minsk Qrupunun həmsədrləri münaqişənin həlli yolunu tapacaq".

# Zaxarova jurnalistlərin qarşılıqlı səfərlərindən danışdı - "... xalqlar arasında əlaqələrin qurulmasına yardım etmək niyyətinin göstəricisidir"

**Azərbaycan və Ermənistan jurnalistlərinin qarşılıqlı səfərləri tərəflərin ermənilərlə azərbaycanlılar arasında əlaqələrin qurulmasına yardım etmək niyyətinin göstəricisidir.**

"Trend"-in məlumatına görə, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova brifinq zamanı deyib.

O xatırladıb ki, bu səfər 17-21 noyabr tarixlərində ATƏT-in hazırkı sədrinin şəxsi nümayəndəsinin vasitəçiliyi ilə baş tutub:

"Biz bu birgə tədbiri tərəflərin ermənilərlə azərbaycanlılar arasında əlaqələrin qurulmasına yardım etmək niyyətinin göstəricisi kimi nəzərdən keçiririk. Hesab edirik ki, bu cür humanitar aksiyalar əhalinin sülhə hazırlanmasına yönəlib. Davam etmək lazımdır, biz, şübhəsiz ki, bunu dəstəkləyəcəyik. Öz tərəfimizdən biz zəruri vasitəçilik dəstəyi göstərəcəyik".

**Prezident İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illiyi ilə bağlı tədbirdə Azərbaycanın yalnız özünə güvənməli olduğuna dair fikir səsləndirib. Ölkə başçısı qeyd edib ki, bizi bizdən çox sevən yoxdur: "AXC-Müsavat cütlüyü dövründə prezidentin kabinetinin qapısını xarici səfirlər ayaqları ilə açırdılar, ona göstərişlər verirdilər.**

# "Hamısı yalandır, bizi bizdən çox sevən yoxdur" - Prezidentin bəyanatının Azərbaycan üçün əhəmiyyəti...



## *Qabil Hüseynli: "Ölkə başçısı xalqına bir-birini sevməyi, daha mehriban olmağın vacibliyini təlqin edir"*

O da məzlum bir adam kimi o göstərişləri yerinə yetirirdi. Ona görə belə günə düşdü. Məgər bizi bizdən çox sevən, istəyən varmı? Bu gün bəzi hallarda bəzi xarici dairələrdən eşidirik ki, biz Azərbaycana kömək etmək istəyirik, biz Azərbaycanı belə inkişaf etmiş ölkə kimi görmək istəyirik. Hamısı yalandır. Mən tam səmimiyyətlə deyirəm. Bizim ən ağır günlərimizdə xəzinə boş idi, Xalq Cəbhəsi-Müsavat cütlüyü talamışdı, ləl-cavahirat fondunu talamışdı. İnsanlar öz axırıncı qızıl əşyalarını aparırdılar ki, ordumuza kömək etsinlər. O vaxt prezident, dövlət katibi, baş nazir o ləl-cavahirat fondunu talan etmişlər. İndi onun izi-tozu da qalmayıb. O vaxt xəzinə boş olanda, biz kreditlər üçün müraciət edəndə heç kim bizə kredit vermirdi. Yaxşı, əgər siz Azərbaycanı bu qədər sevirsinizsə, nə üçün o vaxt bizə kömək etməmisiniz?! Nə üçün ağır vəziyyətdə olan ölkəyə kömək etməmisiniz?! İndi sıra ilə düzülüblər bizə kredit vermək istəyənlər. Biz almırıq. Biz özümüz kredit veririk. Bizim xarici dövlət borcumuz ümumdaxili məhsulun 17 faizini təşkil edir. Bu göstəriciyə görə biz dünyada doqquzuncu yerdəyik. İndi istənilən məbləğdə - bax, sabah 10 milyard dollar lazım olsa, alarıq. Almırıq, qoymuram. Borcu yenə də endirirəm. Ona görə kimsə deyəndə ki, biz Azərbaycanın yaxşılığını istəyirik, inanmayın, gənclər də inanmasınlar. Bizdən çox bizi istəyən heç vaxt olmayıb və olmayacaq".

Göründüyü kimi, Prezident bizim xalq olaraq yalnız özümüzə güvənməyimizin lazım olduğuna diqqət çəkir. Ancaq onun bu fikirlərini fərqli aspektdə yozanlar da var. Məsələn, bəzi radikal dairələr deyirlər ki, bu fikirlərin inkişafı bizi bütün dünya ilə üz-üzə qoya bilər. Hər halda, Prezident bütün bunları nəzərə alıb belə fikirlər söyləyib. Prezidentin bu bəyanatının Azərbaycan üçün nə kimi əhəmiyyəti var?

> *"Bu həm də Azərbaycanın yaxın tarixinin gənclərə düzgün aşılanması baxımından əhəmiyyətlidir ki, gənclərimiz dostlarını və düşmənlərini yaxşı tanısınlar"*

Politoloq Qabil Hüseynli qəzetimizə bildirdi ki, ölkə başçısı heç vaxt ölkəni çətin vəziyyətə sala biləcək fikirlər işlətməz: "Hər ölkə başçısında da belə cəsarət olmur. Açığını deyim ki, bəzi məsələlərdə İlham Əliyev xalqı ilə çox səmimi və açıq mətnlə danışır. Yəni başqa ölkə başçıları kimi fikirlərini diplomatik tərzdə pərdələyərək demir. Elə dildə danışır ki, xalq onu anlasın. Bu məsələdə də Prezident fikirlərini açıq ifadə edib. Xüsusilə də fikir versəniz görərsiniz ki, bunları Azərbaycan gəncliyinə xitabən deyir. Bu gün müstəqillikdən sonra anadan olan vətəndaşımızın artıq 28 yaşı var. İstəyir ki, onlar da əsl həqiqətlərin nə olduğunu dövlət başçısının dilindən eşitsinlər. Doğru olaraq qeyd edir ki, müstəqilliyin ilk illərində biz çox çətinliklər çəkdik. Azərbaycana əsl dost əlini o vaxt uzatmaq lazımıydı. Təbii ki, biz dost ölkələri də tanıyırıq. Amma, ən başlıcası, bizim özümüzə güvənməyimizin vacibliyinə işarə edilir. Bunun Azərbaycan xalqına bilirsiniz nə kimi xeyri var? Ölkə başçısı xalqına bir-birini sevməyi, daha mehriban olmağın vacibliyini təlqin edir. Onlara deyir ki, artıq sizin arxanızda qüdrətli bir Azərbaycan dövləti var. Bu fikirlər ölkənin imicini artırır, bizim heç kimdən asılı olmadığımızı göstərir. Ən başlıcası isə vətəndaş həmrəyliyinin daha möhkəm olmasına bir stimul verir. Belə bir deyim var: "dost dar gündə tanınar". Prezident doğru olaraq qeyd edir ki, indiki Azərbaycana əl uzatmaq istəyənlər çoxdur. Bunu vaxtında etmək lazım idi. Bu həm də Azərbaycanın yaxın tarixinin gənclərə düzgün aşılanması baxımından əhəmiyyətlidir ki, gənclərimiz dostlarını və düşmənlərini yaxşı tanısınlar".

***Məhəmmədəli QƏRİBLİ***

# Milli Məclisin buraxılması barədə qərar verildi

**Yeni Azərbaycan Partiyasının (YAP) Siyasi Şurasının noyabrın 28-də keçirilən təcili iclasında parlamentdəki çoxluq Milli Məclisin buraxılması ilə bağlı qərar qəbul edib. "Trend"in məlumatına görə, bu qərarı YAP öz səlahiyyətlərindən istifadə edərək qəbul edib.**

Noyabrın 29-da Milli Məclisin iclasında hakim partiyanı təmsil edən çoxluq bu barədə məsələ qaldıracaq.

Qeyd edək ki, Azərbaycanda son parlament seçkiləri 1 noyabr 2015-ci ildə keçirilib.

Azərbaycan Respublikasının Milli Məclisi 125 deputatdan ibarət olub, bütün deputatlar majoritar seçki sistemi ilə seçilir.

Xatırladaq ki, daha öncə Yeni Azərbaycan Partiyasının (YAP) Siyasi Şurasının iclasında partiyanı təmsil edən deputatlara Milli Məclisin buraxılması ilə bağlı təşəbbüslə çıxış etmələri tövsiyə olunub. Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının (YAP) Sədr müavini - İcra katibi Əli Əhmədov

deyib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar ciddi müzakirə olunur: "İnsanlar islahatların nəticəsini görür. Bu islahatların həyata keçirilməsinə YAP öz töhfələrini verir və bundan sonra da verəcək. Bu islahatların məqsədi Azərbaycanın daha da inkişaf etdirilməsi, insanların rifahının daha da yaxşılaşdırılmasına nail olmaqdan ibarətdir.

2019-cu ili islahatların daha dinamik aparıldığı il hesab etmək olar. 2019-cu ildə hamının məmnunluğuna səbəb olan sosial paket həyata keçirilib. Digər tərəfdən kadr islahatları aparılıb və insanların razılığı ilə qarşılanıb. Prezident tərəfindən həyata keçirilən islahatlar sistemli, geniş əhatəli xarakter alıb.

Bu xətt bundan sonra da davam edəcək. YAP üzvləri belə qənaətə gəlib ki, islahatlar qanunvericilik sahəsindən kənarda qalmamalıdır. Bu gün YAP-ın Siyasi Şurasında üzvlər islahatların qanunvericilik sahəsinə də gətirilməsini məqsədəuyğun hesab ediblər. Siyasi Şuranın bütün üzvləri vahid mövqeyə gəliblər və parlamentin də islahatlara cəlb edilməsi həyata keçirilən islahatlara uğur gətirə bilər".

Ə.Əhmədov bildirib ki, bu gün Yeni Azərbaycan



Partiyasını Milli Məclisdə təmsil edən deputat korpusu ilə görüş keçirildi: "Deputatlar Siyasi Şuranın qərarına hörmət ifadə edərək parlamentə məktub ünvanlamaq qərarına gəldilər. Məktub yaxın günlərdə parlamentə ünvanlanacaq və hesab edirəm ki, parlamentdə bu qərara yaxın günlərdə baxılacaq".

Növbəti parlament seçkilərində gənclərdən ibarət deputat korpusunun formalaşmasının diqqətdə olacağını deyən Ə.Əhmədov bildirib ki, söhbət parlamentə xalqı ən layiqlə təmsil edən insanların cəlb edilməsindən gedir: "Çalışacağıq ki, parlamentə xalqı layiqincə təmsil edən gəncləri önə çəkək. Yeni azərbaycan Partiyasından nə qədər insanın parlamentdə təmsil olunması xalqın seçimindən asılı olacaq. Biz çalışacağıq vətəndaşları inandıraq ki, YAP üzvləri parlamentdə onları layiqincə təmsil edəcək".

# Rusiya-Azərbaycan münasibətlərində dinamikanın daha bir göstəricisi - Azərbaycan diasporunun bəxti açılır, Elkaponenin təşkilatı kölgədə qalır...

**Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun başçılıq etdiyi nümayəndə heyəti Rusiya Federasiyasına işgüzar səfəri çərçivəsində bu ölkənin xarici işlər nazirinin müavini Andrey Rudenko, MDB ölkələri, Xaricdə Yaşayan Həmvətənlərlə İş və Beynəlxalq Humanitar Əməkdaşlıq üzrə Federal Agentliyin rəhbəri Eleonora Mitrofanova, Rusiya Prezidenti Administrasiyasının Xarici Ölkələrlə Regionlararası və Mədəni Əlaqələr üzrə İdarəsinin rəisi Vladimir Çernov və Prezident Administrasiyası Daxili Siyasət İdarəsinin rəis müavini Mixail Belousov, TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman və Rusiya Federal Məclisinin Federasiya Şurasının sədr müavini İlyas Umaxanov ilə görüşüb.**

Görüşlərdə Azərbaycanın Rusiya Federasiyasındakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlu da iştirak edib.

Bildirilir ki, təmaslarda Rusiyadakı Azərbaycan diaspor təşkilatlarının fəaliyyəti və diaspor sahəsində ikitərəfli əməkdaşlıq istiqamətləri, soydaşlarımızın Rusiya cəmiyyətinə inteqrasiyası və onların təmsil etdiyi qurumlar arasında əməkdaşlığın genişləndirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycanın diaspor fəalları ilə keçirilən görüşü giriş sözü ilə açan səfir P.Bülbüloğlu tədbir iştirakçılarını F.Muradovun səfərinin mahiyyəti və məqsədi haqqında məlumatlandırıb.

F.Muradov öz çıxışında rəhbərlik etdiyi komitənin son ilyarım müddətində fəaliyyəti haqqında məlumat verərək ölkəmizdə aparılan islahatların diaspor sahəsinə də təsirsiz ötüşmədiyini vurğulayıb və son dövrdə görülmüş işlər, əldə edilmiş nailiyyətlər, o cümlədən, komitənin yeni yaradılmış radiosu və təqdim etdiyi onlayn xidmətlər barədə danışıb.

Sonra tədbir qeyri-rəsmi hissə ilə davam edib. Burada soydaşlarımızın sualları cavablandırılaraq onların diaspor işi ilə bağlı təklifləri qeydə alınıb və Rusiyada diaspor işinin təkmilləşdirilməsi üçün ilkin olaraq Koordinasiya Şurasının yaradılması haqqında razılıq əldə olunub. Belə görüşlərin Moskva şəhərindən sonra Rusiyanın digər regionlarında da keçiriləcəyi bildirilib.




Görüş çərçivəsində diaspor fəalları Ramiz Abutalıbov, Rauf Atolibəyov və Adil Hacınski "Azərbaycan Cümhuriyyətinin 100 illiyi" medalı ilə təltif ediliblər.

Xatırladaq ki, bir zaman Rusiyada rəsmi Bakı və Moskvanın xeyir-düası ilə yaradılan və azərbaycanlıları öz ətrafında birləşdirən ən böyük diaspor təşkilatı olan Ümumrusiya Azərbaycanlıları Konqresinin (ÜAK) rəsmi qeydiyyatının ləğvindən sonra pərakəndə halda olan diasporu bir yerə yığmaq istiqamətində görülən işlər heç bir səmərə vermirdi. Rusiyada olan bəzi şəxslər məhz bu boşluğu doldurmaq üçün müəyyən səylər göstərdilər. Bir neçə ay əvvəl bu missiyanı Rusiyada yaşayan Frenk Elkapone kimi tanınan Füzuli Məmmədov həyata keçirmək istədi. Ancaq ilk andan onlara Azərbaycanın rəsmi dairələri tərəfindən dəstəyin olmadığı özünü göstərdi. Çünki onların yaratdıqları qurumun təsis konfransında Azərbaycan tərəfdən heç bir rəsmi şəxs, hətta ölkəmizin Rusiyadakı səfirliyinin nümayəndəsi belə iştirak etmirdi. Bunun bir sıra səbəbləri vardı.

Qeyd edək ki, Füzuli Məmmədov Rusiyadakı azərbaycanlılar tərəfindən birmənalı olaraq lider kimi qəbul edilən persona deyil. Çox xaotik siyasi cəhdləri ilə yadda qalan Füzuli Məmmədovun zaman-zaman həm Rusiya, həm də Azərbaycan siyasi hakimiyyəti ilə müəyyən problem yaşadığına dair KİV-də çeşidli məlumatlar yayılıb. 2000-ci illərin əvvəllərində hətta Frenkin Azərbaycanda siyasi arenaya sürətli girişmək cəhdləri də uğursuz alınıb. Onun rəhbərlik etdiyi Xalq Vətənpərvərlər İttifaqı Partiyası qısa müddətdən sonra fəaliyyətini dayandırmalı oldu. Bundan sonra F.Məmmədovun diaspor sahəsində göstərdiyi səylər də ciddi nəticə verməyib. Hazırda F.Məmmədovun dünyanın ən böyük və soydaşlarımızın daha çox yaşadığı bir şimal ölkəsində azərbaycanlıları öz ətrafında birləşdirmək cəhdləri elə ilk andan uğursuzluğa məruz qalıb. Təsadüfi deyil ki, F.Məmmədovun sədr seçildiyi ilk gündə Azərbaycan diasporunun fəal üzvləri sosial şəbəkələr vasitəsilə çıxış edərək, toplantının heç də bütün Rusiyada yaşayan soydaşlarımızın iradəsini əks etdirmədiyini bildirdilər. Fuad Muradovun son Moskva səfəri və orda keçirdiyi görüşlər bir daha göstərir ki, Azərbaycan dövləti yaxın qonşumuz olan Rusiyada yaşayan çoxlu sayda soydaşımızın taleyinə biganə deyil. Bu istiqamətdə olan boşluğu təsadüfi adamlar vasitəsilə deyil, prinsipial dövlət siyasətinə uyğun şəkildə doldurmaqda maraqlıdır. Moskvada keçirilən tədbirlərdə özünü Rusiyadakı Azərbaycan diasporunun lideri kimi elan etmiş şəxslərin görünməməsi bir daha göstərir ki, bu istiqamətdə ölkə rəhbərliyinin konkret siyasi iradəsi var və yaxın zamanlarda Rusiyadakı Azərbaycan diasporunun işində irəliləyişlər özünü göstərəcək. F.Muradovun səfərinin Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Rusiyaya etdiyi rəsmi səfərdən sonraya təsadüf etməsi də bu yöndə yeni mərhələnin başlandığına işarə sayıla bilər.

**Çünki həmin səfər çərçivəsində Rusiya ilə Azərbaycan arasında əməkdaşlıqla bağlı mühüm razılaşmaların əldə olunduğu bildirilir. Yəqin ki, yaxın zamanlarda biz Rusiyadakı diasporumuzun vahid platformada birləşdiyinin və aktiv fəaliyyətə start verəcəyinin şahidi olacağıq.**

***Məhəmmədəli QƏRİBLİ***

# Rusiya mediasında erməni faşist Njdenin üstünə yürüş - Azərbaycan Prezidentinin Valdaydan başlatdığı proses dərinləşir...

**Rusiyanın aparıcı KİV-i həmin ölkənin Ermənistanla münasibətlərinin gərginləşməsinə dair materiallar dərc edir. Həmin məlumatlarda qeyd edilir ki, buna səbəb Ermənistanın "milli qəhrəman" kimi elan etdiyi, əslində isə qatı faşist olan və Hitlerin silahdaşı kimi SSRİ-yə qarşı vuruşmuş Qaregin Njdenin şəxsiyyətinə rəsmi İrəvanın verdiyi aşırı yüksək qiymət olub.**



Qeyd edək ki, bu mövzu faşizm üzərində qələbənin 75 illiyi ilə bağlı MDB ölkə başçılarının Aşqabadda keçirilən görüşündə İlham Əliyev tərəfindən gündəmə gətirilən sonra daha da aktivləşməyə başlayıb. Həmin vaxt İlham Əliyev bildirmişdi ki, Ermənistan rəhbərliyi bir tərəfdən faşizm üzərində qələbəni qeyd edir, digər tərəfdən isə mahiyyət etibarilə faşist olan Njdeyə heykəl ucaldır. Ölkə başçısı həmin heykəlin götürülməsi ilə bağlı konkret tələb qoymuşdu. Bunun ardınca Rusiyanın Armavir şəhərində də Njdenin xatirəsinin əbədiləşdirildiyi faktı ortaya çıxdı. Bu mövzuda gedən müzakirələrin təsirinə düşən yerli deputatlardan biri Njdenin xatirəsinin əbədiləşdirildiyi lövhənin üzərinə boya tökdü.

Artıq vəziyyət o yerə çatıb ki, Ermənistanın təbliğat maşını Njdenin faşist mahiyyətindən imtina etməyin yollarını düşünür. Paşinyan hakimiyyəti fikirləşir ki, Njdenin heykəlinin götürülməsi daxili auditoriyada böyük narazılığa səbəb ola bilər. Bu səbəbdən də dövriyyəyə belə bir məlumat buraxırlar ki, guya Njde faşist yox, Ermənistanı blokadadan çıxaran şəxs olub. Qeyd edirlər ki, məhz Njde Ermənistanın Sunik və Mehri kimi ərazilərini Ermənistanın tərkibində saxlamağa kömək edib. Ancaq görünən budur ki, belə faktlarla Rusiya mətbuatını yayındırmaq mümkün olmayıb. Rusiya KİV-i konkret məlumatlara əsaslanaraq Njdenin faşist fəaliyyətindən ətraflı bəhs edir. Artıq Rusiyanın rəsmi dairələrində və hətta rəhbərliyində bu mövzuya həssas yanaşma ortaya qoyulur.

İki gün əvvəl Çexiyanın paytaxtı Praqanın Rjeporıye rayonunda Böyük Vətən Müharibəsi zamanı faşistlərin tərəfinə keçmiş və sovet ordusunun əsir düşmüş döyüşçülərindən ibarət Rusiya Azadlıq Ordusu (RAO) yaradan general Andrey Vlasovun döyüşçülərinə abidə qoyulmasına hazırlıq görülməsi Rusiya Prezidenti Vladimir Putin tərəfindən tənqid edilib.

Həmin rayonun başçısı Pavel Novotnı isə Rusiyanın Praqadakı səfirliyi vasitəsilə ona cavab məktubu göndərib. Rayon başçısı məktubunda bildirir ki, abidənin tikilməsi məsələsini Moskva ilə müzakirə etmək niyyətində deyil.

Bütün bu proseslər göstərir ki, İlham Əliyevin başlatdığı etiraz öz bəhrəsini verir və Ermənistan rəhbərliyini dilemma qarşısında qoyub. Mövzunun Rusiya mətbuatı tərəfindən də aktiv işıqlandırılması məsələyə Rusiya ictimai rəyinin də həssas yanaşmasından xəbər verir.

Çünki faşizm üzərində qələbədə daha çox insan itkisinə məhz Rusiya məruz qalıb. Bu baxımdan da Rusiya ilə dostluq edən bir ölkənin həm də rəsmi səviyyədə faşizmə rəğbət bəsləməsi yolverilməz sayılır. Artıq Rusiya ilə Ermənistan arasında ciddi fikir ayrılığına səbəb olan bu məsələdən görünür ki, Ermənistan rəhbərliyinin güzəştə getməkdən başqa çarəsi qalmır.

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycanda yeni müxalifəti necə yaratmaq olar - indiki konstruktiv müxalifətin yenidən qurulması, ya köklü surətdə yeninin yaranması...

**Prezident İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə etdiyi çıxışda yeni müxalifətin meydana çıxmasının zəruriliyinə də toxunub. Ölkə başçısı bildirib ki, bu gün müxalifət düşərgəsində boşluq yaranıb və bizi istəməyənlər gənclərdən istifadə etmək istəyirlər ki, onları xalqın üstünə qaldırsınlar.**




## *Bünyamin Qəmbərli: "Bir neçə müxalif partiya parlamentdə normal sayda deputatla təmsil olunarsa, bu onların maliyyələşməsinə də kömək edər"*

Prezident qeyd edib ki, dövlətçiliyə sadiq qalan, xalqa bağlı olan, doğrudan da hakimiyyəti tənqid edən, amma konstruktiv təklif verən, yol göstərən sağlam müxalifət yaradılmalıdır: "Ancaq biz sevinərik əgər belə müxalifət yaranarsa. Doğrudan da bizim işimizə kömək olar. Biz hər şeyi indi öz üzərimizə götürmüşük, bəlkə də hansısa alternativ yanaşma, yaxud da ki, mövqe kömək edə bilər. Amma yoxdur və yaxın üfüqlərdə də görünmür".

Göründüyü kimi, İlham Əliyev ölkədə yalnız radikal müxalifətin olduğuna işarə etmir, onların yerini doldura biləcək konstruktiv müxalifətin yoxluğuna da diqqəti yönəldir. Maraqlıdır ki, ölkədə bir çox partiya var ki, onlar özlərini radikal yox, konstruktiv müxalifət kimi təqdim edirlər. Hətta bəziləri parlamentdə də təmsil olunurlar. Prezidentin bildirdiyi nöqsanın aradan qaldırılması, ölkənin siyasi palitrasının daha da sağlamlaşması üçün hansı addımların atılması zəruridir: indiki konstruktiv müxalifətin yenidən qurulması, ya köklü surətdə yeni müxalifətin yaranması?

Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədr müavini Bünyamin Qəmbərli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycanda sağlam müxalifətin formalaşması direktiv üsullarla reallaşa bilməz: "Yeni ölkə başçısı öz istəyini ortaya qoyub. Çox normaldır. Biz də təqdir edirik ki, ölkə başçısı belə iradə ortaya qoyur. Hər halda, bunun bütün ölkəmiz üçün xeyri ola bilər. Ancaq gəlin görək onun bu istəyinə hansı bürokratik əngəllərlə mane olurlar? Biz 20 ilə yaxındır konstruktiv müxalifət kimi fəaliyyət göstəririk. Ancaq parlamentdə olan təmsilçiliyimiz bir nəfərdən artıq olmayıb. Yeni müxalifətin yaranması asan məsələ deyil. Faktiki olaraq ortada çox ciddi sosial bazaya malik olan, təcrübəli müxalif partiyalar var. Onların daha effektiv fəaliyyət göstərməsi üçün bir sıra şərtlərin olması vacibdir. Ən başlıcası maliyyədir. Bu olmadan, partiyaların böyüməsi, yerlərdə təmsil olunması çətinləşir. Bununla da siyasi partiyanın cəmiyyətə olan təsir imkanları zəifləyir. Bəs maliyyəni partiyalar haradan alır? Qanuni yolla partiyalar parlamentdə təmsilçilik faizinə görə maliyyələşirlər. Hansısa partiya bir millət vəkili ilə təmsil olunursa, ona verilən vəsait ümumi partiyanın maliyyələşməsi üçün azlıq edir. Mən hesab edirəm ki, normal, effektiv fəaliyyət göstərən konstruktiv müxalifətin dinamikliyini artırmaq üçün, ilk növbədə, onların parlamentə yolunu açmaq lazımdır. Artıq biz sizinlə söhbət edən anda məlum oldu ki, qarşıdan yeni növbədənkənar parlament seçkilərinin gəldiyinə şübhə qalmadı. Mən çox istərdim ki, yeni seçkilərə gedərkən proporsional seçki sisteminin bərpası da reallaşsın. Bax, onda biz partiyaların aktivliyini artıra bilərik. Biz dəfələrlə partiya olaraq belə təkliflə çıxış etmişik. Bu seçki sisteminin bərpası partiyalara olan marağı və onlar arasındakı rəqabəti artırmış olar. Qoy hansı partiya güclüdürsə, buyurub qanunverici orqanda çox səslə təmsil olunsun. Bir neçə müxalif partiya parlamentdə normal sayda deputatla təmsil olunarsa, bu onların maliyyələşməsinə də kömək edər və nəticədə onların fəaliyyəti daha da güclənər. Hazırda 13 parlament partiyasına 108 min manat pul ayrılır. Bu da cüzi rəqəm edir. Heç rayonlara gedib-gəlməyi görmür. Məsələn, bizim partiyanın daha da güclənməsi üçün kifayət qədər gücü var. Bunun üçün münbit şərait olmalıdır. Partiyaların inkişafı yalnız onların özündən asılı olan məsələ deyil".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənistanda faşist Njde barədə yeni əfsanə - "Njde olmasaymış, guya Rusiya 102-ci bazaya təyyarə uçura bilməzmiş"...

**Qasım Hacıyev:** *"Rusiyada başlayan anti-Njde hərəkatının dayandırılması üçün Ermənistan müxtəlif şantaj yollarına, təzyiq vasitələrinə əl atır"*

**Erməni mətbuatı Azərbaycan Prezidentinin Hitlerin əlaltısı olan, faşizmə xidmət edən Qaregin Njdenin Ermənitan hökuməti tərəfindən İrəvanda heykəlinin qoyulmasını pisləməsi, bununla da Ermənistanın faşizmə açıq dəstək verdiyini ifşa etməsi əməllibaşlı ermənilərin kürkünə birə salıb.**

Ermənilərin Q.Njdenin heykəli ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevin səsləndirdiyi fikirlərdən ciddi narahatlıq keçirdiklərini yazan düşmən ölkənin mediası Njdenin "əfsanələşdirilməsinin" səbəblərinə öz aləmində bəraət qazandırmaq istəyib.

Erməni KİV-i yazır ki, Azərbaycanda Njdenin heykəlinin götürülməsi ilə bağlı təbliğat güclənib. Onlar iddia edirlər ki, guya Azərbaycan təbliğatı Njdenin heykəli ilə bağlı məsələni tam kontekstdən çıxarır, onun heykəlinin İrəvanda ucaldılması heç də faşizmə xidmət etməsi, faşistlərlə müttəfiq olaraq SSRİ-yə qarşı döyüşməsi səbəbilə bağlı deyil. Erməni mediası iddia edir ki, Njdenin heykəlinin qoyulmasına səbəb onun Sünik və Mehri vilayətlərinin Ermənistanın tərkibində saxlanmasında xüsusi fəallığının olması olub. "Belə olmasaydı, həmin ərazilər Azərbaycan tərəfdən blokada şəraitində saxlanacaqdı. Bu gün Q.Njdenin köməkliyi ilə Ermənistanın tərkibində saxlanan həmin vilayətlərin əhəmiyyətini yəqin ki, çoxları unudur. Faktiki olaraq, Rusiya ilə Ermənistan arasında hava dəhlizi yoxdur. Azərbaycan və Gürcüstan bu dəhlizi bağlayıb. Ona görə də Ermənistanda olan Rusiya hərbi bazalarına yüklərin daşınması üçün Rusiya təyyarələri Xəzər dənizi üzərindən İrana keçir və İrandan da Sünik və Mehri üzərindən Ermənistana daxil olurlar" - deyə erməni mediası yazır.

Azərbaycan Milli Elmlər Akademiyasının Albanşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev bizimlə söhbətində bildirdi ki, ermənilər əli türk qanına batan daşnakların hamısını qəhrəmanlaşdıraraq onlara heykəllər qoyublar. Q.Hacıyevin sözlərinə görə, Azərbaycan Prezidentinin faşist Njdenin heykəli ilə bağlı Aşqabaddakı çıxışından sonra artıq dünyanın müxtəlif yerlərində antierməni dalğası güclənməkdədir. Rusiyanın bəzi vilayətlərindən Njdenin barelyefinin, büstünün götürüldüyünü xatırladan Q.Hacıyevin bildirdiyinə görə, hazırda Rusiyanın özündə çox böyük anti-Njde kampaniyası həyata keçirilir. "Faşizmdən əziyyət çəkən dünya Njdenin saysız cinayətindən xəbərdardır. Onun dünya üçün hələ tam açılmamış cinayətlərindən biri də əsrin əvvəllərində türklərə qarşı qətliamlar törətməsidir ki, bunu da ermənilər özləri etiraf edirlər. Yəni Njde İkinci Dünya Müharibəsinə bir cinayətkar olaraq, əli yüzlərlə türkün qanına batmış bir daşnak kimi getmişdi. Oradakı əməllərindən də hər kəsin xəbəri var. Ermənilər özləri etiraf edirlər ki, Sünik və Mehri Ermənistana sonradan verilib. Bilirsiniz ki, onlar Zəngəzur mahalına Sünik deyirlər və Zəngəzurun da ermənilərin əlinə hansı yollarla keçməsi tarixdən məlumdur. Onu da deyim ki, həm Sünik, həm Zəngəzur, həm də Mehri tamamilə türk mənşəli adlardır və onların ermənilərlə heç bir əlaqəsi yoxdur. Tarixi Azərbaycan ərazisi olan Zəngəzur torpaqlarına ermənilər dəfələrlə iddia irəli sürüblər, buna görə də Zəngəzuru ələ keçirmək üçün hücumlar ediblər, dinc türklərə divan tutublar. Zəngəzurun işğalında Njde də fəal iştirak edib və onunla bərabər Andranik, Amazaps, eləcə də digər daşnaklar bizə qarşı zülmlər ediblər, ağır tarixi cinayətlər törədiblər. Zəngəzurun Ermənistanın tərkibinə verilməsi birbaşa Lenin və Stalinin göstərişi ilə olub. Bu sirr deyil.

Zəngəzurun Ermənistanın tərkibinə verilməsində böyük rol oynayan SSRİ rəhbərliyi bununla ermənilərin Azərbaycan torpaqlarını hissə-hissə mənimsəməsinə şərait yaratdı. Zəngəzurun ermənilərə verilməsi böyük tarixi cinayətdir. Bu cinayətlərin də iştirakçılarından biri Njdedir. Njde bir xaindir, cinayətkardır, türk qanı axıtmış, dünya insanlarına qarşı cinayətlər törətmiş birisidir.

Ermənistanın Sünik və Mehri dəhlizinin Rusiya üçün yeganə hava dəhlizi olduğunu qabartmaqla Rusiyaya qarşı təzyiq göstərmək istəyirlər. Sünik və Mehri dəhlizinin Rusiya üçün oynadığı rol Rusiyanı şantaj etmək məqsədilə irəli sürülür. Guya ki, bu dəhliz olmasa, Rusiya Ermənistandakı hərbi bazaları ilə əlaqəni tamam itirə bilər.

Bu gün Rusiyada böyük anti-Njde hərəkatı başlayıb, sadə vətəndaşlardan tutmuş, dövlət rəsmilərinə qədər hər kəs İrəvanda Njdeyə heykəl qoyulmasına qarşı çıxış edir, onun qəhrəman yox, faşist əlaltısı olduğunu qeyd edirlər. Rusiyada başlayan anti-Njde hərəkatının dayandırılması üçün Ermənistan müxtəlif şantaj yollarına, təzyiq vasitələrinə əl atır, bunlardan biri də Sünik və Mehri hava dəhlizidir.

Ermənilər bu dəhlizin vaxtilə faşist Njdenin "mübarizəsi" nəticəsində əldə edildiyini Rusiyaya eşitdirmək istəyir, amma Zəngəzura Sovet hökumətinin dəstəyilə sahibləndiklərini unudurlar. Yəni guya vaxtilə Njde olmasaydı, Zəngəzur mahalı Ermənistanın olmayacaqdı. Əslində isə ermənilər Zəngəzura, İrəvana, eləcə də digər türk torpaqlarına rusların dəstəyi, köməyilə sahib olduqlarını unutmamalıdırlar" - deyə Q.Hacıyev vurğuladı.



*"Ermənilər bu dəhlizin vaxtilə faşist Njdenin "mübarizəsi" nəticəsində əldə edildiyini Rusiyaya eşitdirmək istəyir, amma Zəngəzura Sovet hökumətinin dəstəyilə sahibləndiklərini unudurlar"*

***İradə SARIYEVA***

**Hərbi müstəvidə də Azərbaycan və Rusiya arasında əlaqələrin kifayət qədər intensivliklə inkişaf etməsi müşahidə olunur. Belə görünür ki, qarşıdakı dövr ərzində bu istiqamətdə tərəflər münasibətlərini daha da dərinləşdirməyi nəzərdə tutur. Hər halda, Prezident İlham Əliyevin Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovla görüşündə səslənən fikirlər də bu qənaəti gücləndirir.**

# Azərbaycan Rusiyadan yeni hərbi texnikaların alışına hazırlaşır...



Rusiyalı generalla görüşdə Azərbaycan dövlət başçısı bu xüsusda bildirib: "Sizin Bakıya hər gəlişiniz, o cümlədən hərbi əməkdaşlığı, çox uğurla inkişaf edən hərbi-texniki əməkdaşlığı bir daha müzakirə etmək və gələn il qarşılıqlı fəaliyyətin yollarını müəyyənləşdirmək üçün bir fürsətdir. Hesab edirik ki, Rusiya ilə Azərbaycan arasında həm ənənəvi istiqamətlərdə, həm də yeni istiqamətlərdə əməkdaşlıq potensialını artırmağa imkan var".

İki ölkə arasında hərbi əməkdaşlığın inkişafı məsələsi Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycan müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkovla görüşündə də əsas müzakirə predmetlərindən biri olub. Azərbaycan və Rusiya Müdafiə nazirlikləri arasında 2020-ci il üçün ikitərəfli əməkdaşlıq planının imzalandığını vurğulayan N.Sadıkov hərbi sahənin müxtəlif istiqamətlərini əhatə edən tədbirlərin sayının artdığını qeyd edib. Hərbi-texniki sahədə əməkdaşlıq haqqında danışan Azərbaycan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi qeyd edib ki, ölkəmiz Rusiyanın müdafiə sənayesi şirkətləri ilə əməkdaşlığa xüsusi önəm verir. V.Gerasimov da əlaqələrimizin tarixi köklərə əsaslandığını, ölkələrimizin strateji tərəfdaş olduğunu qeyd edərək, hərbi nümayəndələrin qarşılıqlı görüşlərinin təşkili və keçirilməsinin ikitərəfli münasibətlərin, eləcə də hərbi və hərbi-texniki sahədə əməkdaşlığın genişlənməsi baxımından zəruriliyini bəyan edib. Bunlar fonunda gözlənir ki, qarşıdakı dövr ərzində tərəflərin hərbi-texniki sahədə əməkdaşlığı daha da genişlənsin. Bunu rus hərbi ekspert Aleksandr Xrolenko da xüsusi olaraq vurğulayır. Onun sözlərinə görə, Azərbaycan-Rusiya əməkdaşlığının müsbət inkişafı, başda Azərbaycan və Rusiya Federasiyası olmaqla, beş Xəzəryanı dövlətin başçılarının əldə etdiyi regional gərginliyin azaldılması prosesinə böyük kömək edir:"Ötən ilin yayında Xəzərin statusu haqqında konvensiya imzalanmışdı ki, bu da təbii sərvətlin bölüşdürülməsi və Xəzəryanı olmayan dövlətlərin silahlı qüvvələrinin Xəzər akvatoriyasında olmaması prinsiplərini müəyyənləşdirdi. Əvvəllər Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmənistan arasındakı ziddiyyətlər regional turbulentlik yaradan iqtisadi sektorların məhdudlaşdırılması ilə əlaqədar olaraq qalırdı. Konvensiya Xəzəryanı ölkələrin silahların artırılması zərurətini azaltdı və hazırda bölgədəki hərbi-siyasi vəziyyət dinamikliyi ilə fərqlənir. Əfqanıstan və Yaxın Şərqdəki gərginlik ocaqları Azərbaycan və Rusiyanı narahat edir. Bunlar beynəlxalq terrorizm və sərhədyanı cinayətlər (narkotik ticarəti, silah qaçaqmalçılığı, yaraqlıların hərəkəti) təhlükəsini ortaya qoyurlar. Buna görə Bakı ilə Moskva ikitərəfli və MDB Terrorla Mübarizə Mərkəzi çərçivəsində qarşılıqlı fəaliyyət göstərirlər. Sahil hissəsində hər hansı bir terror təzahürünün qarşısını almaq üçün sərhəd xidmətləri, xüsusi xidmətlər vasitəsilə məlumat mübadiləsi də aparılır. Son məqsəd inam yaratmaq və Xəzər bölgəsində insidentlərin qarşısını almaqdır".

Ekspert bildirir ki, Rusiya və Azərbaycan iyun ayında hərbi-sənaye sahəsində əməkdaşlıq haqqında memorandum imzalayıb: "Rusiya Azərbaycanın silah və digər hərbi təyinatlı məhsullar aldığı ölkələr arasında çoxdan lider mövqeləri tutur. İl ərzində Bakı ilə Moskva arasındakı dövriyyə 20% artaraq 2,5 milyard dollara çatıb. Bu məbləğdə əhəmiyyətli yeri hərbi-texniki əməkdaşlıq müqavilələri tutur.

Rusiya Azərbaycana T-72 və T-90S tanklarını, ZTR-80 zirehli transportyorları, yaylım atəşi reaktiv sistemləri, çoxməqsədli helikopterlər, hava hücumundan müdafiə və radioelektron mübarizə sistemləri və döyüş sursatları verib. "Rusiya Helikopterləri" Holdinqi 2016-cı ildə "Silk Way Helicopter Services" şirkəti ilə Rusiyanın Mi-8/17 helikopterlərinə xidmət göstərmək və onları təmir etmək məqsədilə Azərbaycan ərazisində müştərək müəssisə yaratmaq barədə müqavilə imzalayıb. Gələcəkdə Azərbaycan Rusiyanın əlavə Mi-35 hücum helikopterləri, "Pantsir" zenit kompleksləri və bir sıra digər silahlar ala bilər. İki ölkə arasında hərbi-texniki əməkdaşlıq 2003-cü ildən etibarən, Azərbaycan və Rusiya hərbi idarələrinin rəhbərləri hərbi-texniki əməkdaşlıq haqqında hökumətlərarası sazişi imzaladıqdan sonra dinamik inkişaf edir. Azərbaycanın Rusiyadan əldə etdiyi hərbi təyinatlı məhsulların həcmi 5 milyard dollar qiymətləndirilir".

Ekspert xatırladır ki, hərbi-texniki və iqtisadi əməkdaşlıqla yanaşı, Bakı ilə Moskvanın birgə səy göstərdiyi xüsusi qeyd edilməyə dəyər başqa bir istiqamət də var ki, bu da Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasıdır:"Hesab olunur ki, Rusiyanın Azərbaycanla Ermənistan arasındakı münasibətləri normallaşdırmağa kömək etmək üçün geniş imkanları var. Bunu təsdiq edən çox sayda amillər var.

Vladimir Putinin vasitəçiliyi ilə Moskvada, futbol üzrə Dünya Çempionatının açılışında İlham Əliyev və Nikol Paşinyan şəxsən tanış olublar. Münaqişənin həllinin yalnız siyasi yolla əldə oluna biləcəyini təsdiqləyən 2008-ci il Moskva Bəyannaməsini (bu hələlik Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair Azərbaycan və Ermənistan rəhbərlərinin imzaladığı ilk və yeganə sənəddir) dəyərləndirmək də qeyri-mümkündür. Rusiyanın köməyi ilə 1994-cü ildə hazırkı atəşkəsin əsasını təşkil edən atəşkəs haqqında saziş bağlanıb. Qeyd edək ki, Avropa İttifaqı və NATO uzaqdadır, Rusiya isə daim yaxındadır. Azərbaycan Rusiyanın MDB ölkələri ilə xarici ticarətində Belarus, Qazaxıstan, Ukrayna və Özbəkistandan sonra beşinci yeri tutur. Rusiya Federasiyası isə Azərbaycanın əsas mal təminatçısıdır. Bakı və Moskva Xəzərdə yeni inteqrasiya konfiqurasiyası - Azərbaycan-İran-Rusiya çərçivəsində uğurla əməkdaşlıq edirlər. Bu qarşılıqlı əlaqənin əsasını Hindistan, İran, Fars körfəzi ölkələrindən tranzit malları Azərbaycan, Rusiya Federasiyası ərazisinə və daha sonra Şimali və Qərbi Avropaya daşınması üçün nəzərdə tutulmuş ümumi uzunluğu 7200 kilometr olan "Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsi təşkil edir. Xəzərdə bu yaxınlarda müəyyənləşdirilmiş oyun qaydaları Moskva ilə Bakı arasında karbohidrogenlərlə zəngin olan bölgədə qarşılıqlı fəaliyyət üçün yeni imkanlar açır".

Bütün bu qeyd edilənlər qarşıdakı dövr ərzində əlaqələrin hərbi müstəvidə yeni yüksəliş mərhələsinə keçəcəyini bir daha aydın surətdə nümayiş etdirir.

***Nahid SALAYEV***

**Azərbaycan Prezidentinin son iki çıxışının əsas yekunu budur: uğurlarımız faktdır, lakin dayanmaq olmaz, biz daha qüdrətli, daha rifahlı bir Azərbaycan qurmalıyıq. Bu hədəfə doğru irəliləyərkən keçmiş illərin nə uğurlu səhifələrini, nə də ki, acı xatirələrini; nə ölkəni idarə edənlərin uğurlarını, nə də səriştəsizliklərini; nə siyasi qətiyyətin nəticələrini, nə də səhlənkarlıqların fəsadlarını unutmamalıyıq.**

# Hədəf daha qüdrətli, daha rifahlı Azərbaycandır!

## *Prezident İlham Əliyevin Sumqayıtda və BDU-nun yubileyində etdiyi çıxışlar haqda bəzi qeydlər*

Qarşıdan gələn müddətdə milli tariximizin bütün dərslərini və yaşana biləcək fəsadları göz önünə almalı, ümum-Azərbaycan məsələlərində dövlətçiliyə xidmət edənləri də, düşmənlərimizlə bir sırada yer alanları da, belələrindən qəhrəman düzəldənləri də yaxşı tanımalıyıq. Biz - Azərbaycanın inkişafına məsul olan iqtidar komandası dövlətçiliyimizin və milli maraqlarımızın ətrafında daha sıx birləşərək, bu yolda heç bir təxribatçı fəaliyyətə, komanda oyununa xələl gətirmə istiqamətindəki əyintilərə imkan verməyəcəyik.

Hörmətli oxucuların diqqətinə çatdırmaq istəyirəm ki, uzun müddətdir hakimiyyət təmsilçiləri iqtidarla yanaşı müxalifətdə də kadr və təşkilatı islahatların vacibliyi haqqında çıxışlar edirdi, 25-30 ildir ki, eyni liderlərin rəhbərlik etdiyi ənənəvi müxalifətin yenilənməsi ilə bağlı müzakirələr aparırdı. Təəssüf ki, müzakirələrə qatılmaq əvəzinə əks tərəfdən yalnız anlaşılmaz və inkarçı münasibət görürük. Nə gizlədək, bəzən iqtidar komandasında da belə müzakirələrə könülsüz qoşulanlar tapılırdı. Cənab Prezident Bakı Dövlət Universitetinin 100 illik yubileyindəki çıxışında bu mövzuya toxunaraq vurğuladı ki, Azərbaycanın müxalifət düşərgəsində bu gün ciddi bir boşluq yaranıbdır, ölkədə sağlam müxalifətin yaranmasına, dövlətçiliyə sadiq, xalqa bağlı olan, doğrudan da konstruktiv təkliflər verə bilən, hakimiyyəti konstruktiv formada tənqid edən, alternativ inkişaf yolları göstərən müxalifət yaranarsa, biz buna yalnız sevinərik. Cənab Prezidentin Sumqayıtda və BDU-nun yubileyində etdiyi çıxışlardakı fikirləri, ritorikası, səsləndirdiyi qətiyyətli çağırışlar, düşünürəm ki, həm sağlam əqidəli opponentlərimizə, həm hər iki düşərgənin islahat müəlliflərinə, həm də bu istiqamətdəki müzakirələrə könülsüz qoşulan siyasətşünaslara ciddi düşünmək üçün xeyli mövzu verir. Hesab edirəm ki, cənab Prezidentin son iki tədbirdəki çıxışları iqtidar komandasının hər bir üzvü və mövcud hakimiyyətin aktiv dəstəkçiləri üçün master-klass sayıla bilər. Çıxışlarda vurğulanan əsas məqamlar haqqında bir qədər təfsilata varmaq istəyirəm:

1. Azərbaycan Prezidentinin çıxışlarında vurğulanan və əsaslandırılan əsas fikirlərdən biri ondan ibarət idi ki, bugünkü Azərbaycan Heydər Əliyevin 1969-cu ildən başlanan və ardıcıl şəkildə həyata keçirdiyi məqsədyönlü fəaliyyətinin nəticəsidir. Keçən əlli ildə Azərbaycanın geridə qalmış aqrar respublikadan inkişaf etmiş sənaye və kənd təsərrüfatı ölkəsinə çevrilməsi, ictimai-siyasi və mədəni həyatın bütün sahələrində hərtərəfli inkişaf etməsi, ölkənin milli maraqlarının təmin edilməsi, SSRİ-nin aparıcı respublikalardan, hazırda isə regionun aparıcı dövlətlərindən birinə çevrilməsi məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olmuşdur. Heydər Əliyevin respublikamızdakı ilk hakimiyyəti illərində Azərbaycanda ali məktəblərin və ali məktəb məzunlarının ümum əhali sayına nisbəti kəskin şəkildə artaraq inkişaf etmiş Qərb dövlətlərinin göstəricilərinə yaxınlaşmışdı. Azərbaycan ədəbiyyatının, incəsənətinin, mədəniyyətinin, elminin, təhsilinin, səhiyyəsinin sovet hakimiyyəti illəri ərzində ən gözəl nəticələri və qiymətləndirilməsi də məhz bu dövrə təsadüf edirdi. Prezidentin bu fikirləri ilə mübahisə etmək mümkünsüzdür: Heydər Əliyevin yaratdığı güclü kadr potensialı bu gün də ölkəmizin, müstəqil dövlətimizin uğurlu inkişafını təmin edir. Bu illərdə respublikada 10-larla elm, mədəniyyət ocaqları inşa olunmuş, onları təmsil edən xadimlər respublikanın və Sovet İttifaqının ali mükafatları və fəxri adları ilə təltif edilmiş, Azərbaycan mədəniyyətin uğurları Sovet İttifaqının hüdudlarını aşaraq dünya miqyasına çıxmışdır. Prezidentin qeyd etdiyi kimi, " Heydər Əliyevin rəhbərliyi dövründə - 13 il ərzində Azərbaycan hər il "Qırmızı keçici bayraq" alıbdı. Bu, bir daha onu təsdiq edir ki, onun rəhbərliyi ilə Azərbaycan böyük və uğurlu yol keçmişdir. Heydər Əliyev Azərbaycana rəhbərlik etməyə başlayanda respublikamız SSRİ-də ən sonuncu yerlərdə idi. Lakin O, Azərbaycanı böyük inkişafa qovuşduraraq ən qabaqcıl yerlərə qədər ucaltdı". Heydər Əliyevin birinci hakimiyyəti illərində həm də ölkənin iqtisadi inkişaf trendləri düzgün təhlil edilərək SSRİ-nin xammal əlavəsi statusundan çıxması və yerli sənaye müəssisələrinin inkişafı istiqamətində ciddi addımlar atılmışdı. Bununla yanaşı, Azərbaycanın müsbət demoqrafik göstəricilərinin saxlanması və daha da yaxşılaşması istiqamətində digər addımlar- əhalinin məşğulluğunu təmin etmək məqsədilə respublikanın şəhər və qəsəbələrində yaradılan çoxsaylı sənaye obyektləri, Sovet İttifaqında ən qabaqcıl soyuducu və kondisioner zavodlarının Bakıda qurulması, ölkə üzrə çoxsaylı yerli aqrar sənaye komplekslərinin yaradılması, Nabrandan Lənkərana qədər Xəzər sahilində neçə-neçə ümumittifaq əhəmiyyətli turizm-sanatoriya komplekslərinin salınması və s. tədbirlər xüsusi qeyd edilməlidir. Neft sənayesinin gələcəyini təmin etmək üçün dərin özüllər zavodu qurulmuş, dənizdə neft-qaz kəşfiyyatı işləri aparılmışdı. Bu, bir həqiqətdir ki, o zaman kəşf edilmiş yataqlar olmasaydı, sonradan ölkəmizin iqtisadi və geosiyasi müstəqilliyinin əsası olan "Əsrin müqaviləsi"nin imzalanması da mümkün olmazdı. Artıq 80-ci illərin ortalarına doğru Azərbaycan büdcəsinin neftdən asılılığına, demək olar ki, son qoyulmuşdu - o zaman üçün yeni modern texnologiyalara malik çoxsaylı müəssisələr qurulmuşdu ki, bu müəssisələr aqrar sənaye kompleksləri ilə birlikdə respublika büdcəsinin böyük hissəsini formalaşdırırdı. Təəssüf ki, 80-ci illərin sonları, 90-cı illərin əvvəllərində qısa zaman kəsiyində ölkəyə rəhbərlik edənlər bu əlverişli iqtisadi zəmini möhkəmlətmək, onun üzərində iqtisadi suverenliyi təmin etmək əvəzinə mövcud sistemi dağıtmaqla məşğul oldular. Bu dağıdıcılığa xalqın cavabı Heydər Əliyevin xilaskarlıq missiyası ilə hakimiyyətə dəvət edilməsi oldu. BDU-dakı çıxışında Cənab Prezidentin qeyd etdiyi kimi, "məhz 1970-ci illərdə Heydər Əliyevin gördüyü işlər xalq tərəfindən rəğbətlə və böyük məhəbbətlə qarşılanmasaydı, 1990-cı illərin əvvəllərində Azərbaycan böyük fəlakətlə üz-üzə qalanda Azərbaycan xalqı ona müraciət etməzdi".



2. Heydər Əliyev hakimiyyətdə olduğu birinci dövrdə Azərbaycanın demoqrafik göstəricilərinin günü-gündən yaxşılaşması faktoru, ölkədaxili miqrasiyanın düzgün nizamlanması, cənab Prezidentin Sumqayıtdakı çıxışında qeyd edildiyi kimi, Dağlıq Qarabağda azərbaycanlı əhalinin nisbətini iki dəfə artırmışdı. Ölkədə azərbaycanlı əhalinin artım sürəti, ermənilərin İrəvan şəhərinə və Rusiyanın mərkəzi əyalətlərinə emiqrasiya templərini də nəzərə alsaq, Dağlıq Qarabağ probleminin təbii şəkildə həllini yaxınlaşdırırdı. Dünya tarixinin belə nümunələrlə zəngin olduğunu xatırlatmağa, yəqin ki, xüsusi ehtiyac yoxdur, elə bizim bəzi tarixi torpaqlarımız da məhz ayrı-ayrı zamanlarda həmin ərazilərdə demoqrafik balansın əleyhimizə pozulması ilə itirilib. Heydər Əliyevin hakimiyyəti illərində Dağlıq Qarabağda azərbaycanlıların üstünlük təşkil etdiyi ikinci rayon yaradılmış, Dağlıq Qarabağın Azərbaycana hərtərəfli inteqrasiyası üçün bir sıra digər addımlar atılmış, separatçılıq meyillərinin qarşısı qətiyyətlə alınmışdı. Azərbaycan ziyalıları tərəfindən həmin dövrdə erməni millətçilərinin əsassız iddialarına cavab verilməsi üçün hərtərəfli münbit şərait yaradılmışdı. Erməni lobbisinin Heydər Əliyev əleyhinə fəaliyyətinin, onun vəzifədən uzaqlaşdırılması üçün məkrli planlar qurmasının əsas səbəbləri də elə məhz bunlar idi...

***Əli HƏSƏNOV***
***Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi***

*Məqalənin davamı ilə baki-xeber.com saytında tanış ola bilərsiniz.*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# İşğal siyasəti Ermənistanı "xəritədən silir..."

**İşğal siyasətini davam etdirən Ermənistanın sosial-iqtisadi sferada çöküşünün daha dinamik xarakter alması artıq heç kimə sirr deyil. Bunun daha bir real təsdiqi bu günlərdə ATƏT xəttilə Ermənistana və zəbt olunmuş ərazilərə səfər edən azərbaycanlı jurnalistlərin gördüyü real mənzərədir. Həmin mənzərələrdən bir daha bəlli olur ki, işğalçı ölkədə demoqrafiya problemi və yoxsulluq açıq gözlə hiss olunur.**

Ermənistan cəmiyyətində bu fonda Dağlıq Qarabağ münaqişəsi üzündən ölkənin üzləşdiyi strateji çətinlikləri, ölkənin iqtisadi inkişafının perspektivsizliyini görür və dərk edirlər. İşğal olunmuş ərazilərdə isə bu problemlər daha kəskin xarakter daşıyır.

Ermənistana səfər edən jurnalistlərdən biri olan "Trend" xəbər agentliyinin baş redaktoru Elçin Vəliyev bu xüsusda qeyd edir:"İşğal olunmuş ərazilərdə demoqrafik problem daha aydın görünür. Yol boyu boşluqdur. Şuşa şəhərində canlı həyatdan danışmaq çətindir. Qarabağ mənə Hollivud filmlərində olan cansız bir məkanı xatırlatdı. Xankəndidə şou məqsədilə qeyri-rentabelli iaşə müəssisələri tikilib. Bu da daha çox təbliğatdır, nəinki real iqtisadiyyat. Həm Ermənistanda, həm də Qarabağda ciddi müharibə xofu vardır. Azərbaycanın hərbi baxımdan güclü olduğunu başa düşürlər. Qarabağda olan ermənilər görüşə qorxu halında gəlmişdilər. Onlara xüsusi xidmət orqanları ciddi xəbərdarlıq etmişdi. Bizimlə görüşü jurnalistlərdən biri gizlincə telefon vasitəsilə videoya çəkirdi. Bu insanlar keçmişdə donub qaldıqlarını başa düşür, gələcəyə ümidsiz və çarəsiz baxırlar. Onlar, həmçinin, İrəvanda və xaricdə olam erməni siyasətçilərinin əllərində alət olduqlarını başa düşürlər. Nəzarət altında olan söhbət əsnasında belə bunu görmək mümkün idi".

Bütün bunlar Qarabağ münaqişəsinin Ermənistan və ümumilikdə ermənilər üçün yaratdığı reallıqdır. Belə vəziyyətə baxmayaraq, hələlik rəsmi İrəvan konfliktin çözümü ilə bağlı heç bir konstruktiv qərar qəbul edə bilmir, həqiqəti qəbul etməyə siyasi və mənəvi iradəsi çatmır. Eləcə də işğal siyasətinin sonunun puç olduğunu anlamaq istəmir. Yaxın qonşularla problemlər və iqtisadiyyatda yaşanan gərginlik, bir tərəfdən də güclü miqrasiya Ermənistanın bir ölkə kimi gələcəyini şübhə altına alır. Uzun illərdir davam edən belə ağır çətinliklərin fonunda populist vədlərlə hakimiyyətə gəlmiş Nikol Paşinyanın məqsədsiz və yanlış siyasəti də ölkənin üzləşdiyi iqtisadi-siyasi böhranı dərinləşdirir. Ölkə daxilində artan gərginliklər də baş nazirin Ermənistanın daxili və xarici siyasətinin tam yanlış meyarlar üzərində qurulduğunu göstərir. Bu gün Ermənistanda köklü problemlər həllini gözləyir, amma baş nazirin belə problemlərin həlli ilə bağlı hər hansı bir işlək qərarlar qəbul etməməsi erməni ictimaiyyətinin narazılığını getdikcə gücləndirir. Erməni ekspert Ara Meliksetyan bu xüsusda bildirir:"Bu gün insanların qəzəbini, kədərini, hiddətini ən sərt şəkildə ifadə etmələrinin belə qarşısını alacaq real heç nə yoxdur. Belə vəziyyət həddən artıq təhlükəlidir, çünki o, tam deqradasiyaya və özünü fiziki məhvetməyə gətirib çıxarır. Görünən budur ki, cəmiyyəti affekt vəziyyətindən çıxarmaq lazımdır. Bu işi də cəmiyyəti belə vəziyyətə gətirənlər görməlidir, o adamlar ki, sevərək kütləvi nifrət atmosferi formalaşdırdılar, ictimai şüurda nihilizm, radikallıq və aqressiyanı stimullaşdırdılar. Bunlar indiki Ermənistan reallığıdır". Sabiq vitse-spiker Eduard Şarmazanov da bəyan edir ki, ölkədə hər şey qarışıb: "Paşinyan iqtidarı fiaskoya uğrayıb. Məsələn, əmək haqqının yüksəldilməsi və iş yerləri yaratmaq vəd edilirdi, amma optimallaşdırma və iş yerlərinin ixtisarı baş verdi. Sevgi və həmrəylik vəd edirlər, ancaq nifrət yayırlar. Vəd edirlər ki, qisas olmayacaq, amma siyasi həbslər həyata keçirirlər. Bu sıranı davam etdirmək olar. Paşinyan hökuməti ölkənin qarşılaşdığı sosial-iqtisadi problemlərin həll edilməsi istiqamətində heç bir iş görə bilmir".

Qeyd edilənlər onu göstərir ki, Ermənistanda "məxməri inqilab"dan ilyarım keçməsinə baxmayaraq, ölkənin bütün sahələrində mövcud olan əvvəlki vəziyyət hökm sürməkdədir. Qonşu ölkələrlə münasibətlərini hələ də normal qaydaya sala bilməməsi, ölkəni ağır iqtisadi vəziyyətdən çıxarmaq üçün aydın proqrama və potensiala malik olmaması isə Paşinyan hökumətinə olan etibarı artıq tam sıradan çıxarıb. Belə vəziyyətdə ermənilər daha aydın dərk edir ki, qonşu ölkələrlə normal münasibətlər qurulmadan, Qarabağ münaqişəsi həllini tapmadan bu ölkənin xilası mümkün deyil. Faktdır ki, Ermənistanın iqtisadi, hərbi-təhlükəsizlik və xarici siyasətində yaşananların təməlində məhz Azərbaycan ərazilərini işğal altında saxlaması durur. İşğalın davam etməsi Ermənistanın indiki hakimiyyətinə də böyük sosial, siyasi, iqtisadi problemlərin həlli istiqamətində real iş görməyə imkan vermir. Çünki bunun üçün Ermənistanın regional layihələrlə iştirakı vacibdir və bu da Azərbaycandan asılıdır. Azərbaycan isə yalnız işğala son qoyulduqdan sonra Ermənistanla hansısa əməkdaşlığı mümkün sayır. Digər tərəfdən, İrəvanın münaqişənin çözümü üçün əməli addımlar atmaması savaş ehtimalını da artırır. Bu savaş halında Ermənistanı daha böyük problemlər gözləməsi də artıq dəfələrlə bəyan edilmiş reallıqdır. Ən azı o baxımdan ki, bu gün Ermənistan ordusu da olduqca ağır böhran yaşayır və Azərbaycana hansısa ciddi müqavimət imkanı yoxdur. Erməni hərbi ekspert Ara Yeqizaryan bu xüsusda qeyd edir: "İllər üzrə göstəricilərə nəzər salsaq, orduda ancaq tənəzzül yaşandığını demək olar. Daha bir ciddi problem odur ki, indiki şəraitdə ordu və ictimaiyyət arasında təzadlı münasibətlər də dərinləşməkdədir. On minlərlə insan övladlarını mümkün olan bütün vasitələrlə əsgəri xidmətdən yayındırmaqdadır. Bizim müşahidələrimizə görə, ordu və cəmiyyət arasında yaranmış uçurumu bərpa etmək mümkün deyil. Ordudakı vandalizm siyasəti gənclərin hərbi xidmət psixologiyasına mənfi təsir edən əsas amillərdən biridir. Dağlıq Qarabağ uğrunda heç kim qurban olmaq istəmir. Belə vəziyyətdən Azərbaycan maksimal dərəcədə yararlanmağa çalışır və daha güclü ordu ilə qarşımıza çıxır".

Məsələyə erməni polkovnik Qriqor Qriqoryanın da yanaşması olduqa maraqlıdır. O bildirir ki, Paşinyan iqtidarının fəaliyyəti orduya etimadı çıradan çıxarır:

"Onların aprel döyüşləri ilə bağlı yaratdığı komissiya bu istiqamətdə daha bir sarsıdığı zərbə oldu. Aprel döyüşlərini araşdıran komissiya üzvləri kimlərdir, onların tərkibində orduda belə xidmət etməyən insanlar var, silahın nə qədər ağırlığı olduğu barədə heç bir məlumatları yoxdur, silah növlərini bilmirlər və onların bu məsələni müzakirə etməli olduqlarını, hansı qərarlar qəbul edəcəklərini belə anlamıram". Onun sözlərinə görə, ilk növbədə bu suallar kəşfiyyat idarəsinin keçmiş rəisi, hazırda Paşinyanın hərbi müşaviri kimi məsuliyyətə cəlb edilməli ilk şəxs olan Arşak Karapetyana verilməlidir.

Xatırladaq ki, 2016-cı ildə aprel döyüşlərindən dərhal sonra sabiq prezident Serj Sarkisyan Silahlı Qüvvələrin Kəşfiyyat İdarəsinin keçmiş rəisi, general-mayor Arşak Karapetyanı vəzifəsindən azad edib. Onun adı aprel döyüşləri zamanı edilmiş ən böyük kəşfiyyat boşluqları və nöqsanları ilə əlaqələndirilir. Bununla belə, Karapetyan 2018-ci ildə Paşinyanın qərarı ilə baş nazirin müşaviri təyin edilib. Qriqoryan isə qeyd edir ki, aprel döyüşlərindən sonra həyata keçirilən "Günnüt əməliyyatı" Azərbaycan ordusunun yüksək hazırlığının daha bir göstəricisi oldu: "Bəziləri dərk etmədən açıqlama verdi və hələ də davam edirlər ki, hektarlarla ərazi itirmişik. Bəli, mövqeyimizi itirdik, amma geri çəkiləndə istənilən yerdə əlverişli bir mövqe seçməlisiniz. Heç kim danışmır ki, 2018-ci ildə, Paşinyanın hakimiyyəti dövründə Naxçıvan qanadındakı Vayots Dzorda minlərlə hektar ərazi itirdik. Həm də bu əraziləri döyüş olmadan itirmişik. Bəs niyə bu barədə danışmırıq? Necə oldu ki, Azərbaycan mövqeləri nə bilim harada olduğu bir halda, Areni kəndi rəqibin hədəfi altına düşdü?". Onun sözlərinə görə, Azərbaycan hərbi əməliyyatlara indi daha hazırlıqlıdır: "Hətta yaxın aylar ərzində Azərbaycan tərəfindən hərbi əməliyyatlara başlanıla bilər. Hərbi əməliyyatların əsas hissəsi, mümkündür ki, Naxçıvan qanadında aparılsın. Bu, mühüm bir məsələ ilə də bağlıdır. Söhbət ondan gedir ki, Rusiya, Ermənistanla münasibətləri indiki halda davam edərsə, o zaman Ermənistanı məhv etmək məsələsini aktuallaşdıracaq. Hətta belə vəziyyətdə o, Türkiyənin Ermənistana qoşun yeritməsinə də susacaq". Bu durumda erməni polkovnik bildirib ki, Ermənistan Rusiyadan möhkəm yapışmalıdır. O, Rusiyanın Gümrüdəki hərbi bazasının Ermənistan üçün mühüm əhəmiyyət kəsb etdiyini də vurğulayır: "Bəzi axmaq insanlar isə bunun bizə lazım olmadığını deyirlər. Rus qoşunlarını Ermənistandan çıxarsalar, Azərbaycan ordusu 2 saat ərzində İrəvanın mərkəzinə çatacaq". Aydındır ki, erməni polkovnik məsələyə bu formada yanaşmaqda kifayət qədər haqlıdır və çöküşü sürətlə davam edən Ermənistanın hansısa formada Azərbaycana ciddi müqavimət göstərməsi mümkünsüzdür. Bunu dərk etmək əvəzinə, Paşinyanın verdiyi bəzi bəyanatlar Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll edilməsi istiqamətində real addımlar atılmasına imkan vermir. Əksinə, bu hal vəziyyəti daha da gərginləşdirir. Məhz bu gərginlik də Ermənistanın çöküşünü sürətləndirəcək əlavə təkan sayılır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# UNESCO-nun 43-cü Bakı zirvəsi əleyhinə ermənilərin növbəti təxribat cəhdi...

**Noyabrın 27-də Parisdə UNESCO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" Konvensiyasının Baş Assambleyasının 22-ci sessiyası keçirilib. Sessiyada Azərbaycanın Mədəniyyət naziri Əbülfəs Qarayev də iştirak edib.**

Mədəniyyət Nazirliyindən mətbuata verilən məlumata görə, Ümumdünya İrs Komitəsinin sədri kimi nazir Əbülfəs Qarayev 2018-2019-cu illər ərzində görülən işlər və komitənin 43-cü sessiyasında qəbul edilən qərarlarla bağlı hesabatla çıxış edib.

İclasda Ermənistan nümayəndə heyəti, hər zamankı kimi, təxribata əl atıb. Erməni nümayəndə heyəti əsassız olaraq iddia edib ki, bu ölkənin nümayəndələri üçün təhlükəsizlik şərtləri təmin edilmədiyindən, komitənin Bakıda keçirilmiş sessiyasında iştirakları mümkün olmayıb.

Azərbaycan nümayəndə heyəti ermənilərin ənənəvi təxribatına qarşı cavab olaraq bildirib ki, komitənin 43-cü sessiyasının ölkəmizdə keçirilməsi UNESCO ilə Azərbaycan Hökuməti arasında imzalanmış müqavilə və öhdəliklər toplusu ilə tənzimlənib və bu çərçivədə Azərbaycan UNESCO-nun bütün üzv ölkələri və tərəfdaş təşkilatları üçün eyni şərtləri və şəraiti təmin edib.

Ekspertlərin fikrincə, Ermənistanın iddiası quru böhtandan və Azərbaycanın evsahibliyi ilə keçirilən beynəlxalq tədbirlərə kölgə salmaq cəhdindən başqa bir şey deyil. Onlar vurğulayırlar ki, Ermənistan tərəfi ənənəvi olaraq ölkəmizdə keçirilən bütün tədbirlərlə bağlı pozucu mövqedən çıxış edir. Azərbaycanda keçirilən tədbirlərə UNESCO rəhbərliyi və iştirakçıları tərəfindən yüksək qiymət verildiyini deyən ekspertlər hesab edirlər ki, ermənilərin hansısa bir fikir bildirməsi təxribatdan başqa bir şey deyil.

Yeni Yazarlar və Sənətçilər Qurumunun rəhbəri, yazıçı-kulturoloq Aydın Xan Əbilov bizimlə söhbətində bildirdi ki, Azərbaycan dünyanın intellektual beyin mərkəzlərindən birinə çevrilməkdədir: "Bu gün müxtəlif beynəlxalq tədbirlərin, beynəlxalq qurumların sammitlərinin, zirvə görüşlərinin, baş idarəetmə orqanlarının iclaslarının, dinlərarası və mədəniyyətlərarası forumların məhz Azərbaycanın evsahibliyi ilə keçirilməsi bir daha onu sübut edir ki, Azərbaycanda təhlükəsizlik, sabitlik ən yüksək səviyyədə qorunur. Xatırlayıram ki, Dünya Dini Liderlərinin Birinci Sammitində iştirak etmək üçün ermənilərin dini liderləri də Bakıya gəlmişdi. Eyni zamanda, Birinci Avropa Oyunlarında, digər idman yarışlarında erməni əsilli idmançılar, Ermənistanı təmsil edən təmsilçilər iştirak ediblər. Ermənistandan və dünyanın başqa yerlərindən Bakıya, eləcə də Azərbaycanın digər yerlərinə gələn ermənilər ölkəmizdə sərbəst gəzib-dolaşıblar, onlara "qaşın üstə gözün var" deyən olmayıb. Bakıya gələn ermənilər üçün heç bir ictimai təhlükə olmadığı halda, yenə də Azərbaycan dövləti onların mühafizəsini təşkil edib, aidiyyəti qurumların təmsilçiləri onları mühafizə etmişdi. Bilirsiniz ki, hazırda Dağlıq Qarabağda 10 minlərlə erməni vətəndaşımız yaşayır, eyni zamanda, Bakının özündə 20-30 min nəfər erməni var, onlar Azərbaycan vətəndaşlarıdır. Bu insanlara toxunan yoxdur. Bu baxımdan, hesab edirəm ki, Ermənistanın əndişəsi tamamilə əsassızdır. Ermənistan UNESCO-da bu iddianı irəli sürməklə Azərbaycan haqda "təhlükəli ölkə" imicini yaratmaq məqsədi güdüb, amma bu dəfə də onlar fiaskoya uğrayıblar. Çünki Azərbaycanda bütün xalqların, dinlərin təmsilçilərinə müsbət münasibət var. Bilirsiniz ki, bir neçə ay əvvəl UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda keçirilməsini həzm edə bilməyən ermənilər özləri bu tədbirə qatılmadılar. Çünki onlar yaxşı bilirdilər ki, Bakı Sammitində onlara dünya ölkələrinin təmsilçiləri çoxlu sual ünvanlayacaq, işğal altında olan torpaqlarımızdakı vandalizmə məruz qalan abidələrimizin taleyi ilə bağlı cavab tələb edəcəklər. Ona görə də onlar Bakı Sammitinə qatılmaqdan imtina etdilər. Eyni məsələ erməni katolikosu ilə bağlı yaşandı. Erməni katolikosu Qaregin də bu günlərdə Bakıda keçirilən Dünya Dini Liderlərinin II Bakı Sammitinə qatılmadı.

***Aydın Xan Əbilov:*** *"Ermənistan UNESCO-da bu iddianı irəli sürməklə Azərbaycan haqda "təhlükəli ölkə" imicini yaratmaq məqsədi güdüb, amma bu dəfə də onlar fiaskoya uğrayıblar"*




*"Saxtakarlıq, yalançılıq ermənilərin xislətində olduğu üçün, onlar..."*

Erməni təmsilçiləri hər dəfə bu kimi sammitlərə, zirvə görüşlərinə qatılarkən saysız haqlı sualla üzləşirlər, bu səbəbdən də onlar Azərbaycana gəlmirlər. Azərbaycanda ermənilər üçün heç bir təhlükə yoxdur, onlar indiyə qədər burada özlərinə qarşı hər hansı bir təpki, hədə görməyiblər. Saxtakarlıq, yalançılıq ermənilərin xislətində olduğu üçün, onlar hər cür uydurma düşünür və hətta onu beynəlxalq tədbirlərdə, iclaslarda da səsləndirməkdən çəkinmirlər. Ermənilər bu iddianı irəli sürməklə Azərbaycanın multikulturalizm, tolerantlıq dəyərlərinə, eləcə də sabitliyinə, təhlükəsiz bir ölkə olmasına kölgə salmaq istəyirlər".

**A.X.Əbilov qeyd etdi ki, bir neçə gün əvvəl beynəlxalq missiyanın təşkilatçılığı ilə Azərbaycana gələn erməni jurnalistlər həm Bakıda, həm də digər şəhərlərimizdə sərbəst gəzib-dolaşıb, şəkil çəkdirib, onlara qarşı burada hər hansı bir təhlükə olmayıb. Bu halda, erməni nümayəndə heyətinin UNESCO-nun iclasında səsləndirdiyi fikirlərin cəfəngiyyat olduğunu deyən A.X.Əbilov hesab edir ki, onlar bununla həm də öz işğalçılıqlarını ört-basdır etmək istəyirlər.**

***İradə SARIYEVA***

**Ermənistan arxeoloqları yeni saxtakarlıq nümunəsi ortaya qoyublar. Onlar bu dəfə tarixdə mövcud olan və türk etnosu ilə sıx bağlılığı elmi dəlillərlə təsdiqlənən amazonlara qarşı iddialar ortaya qoymağa cəhd ediblər. Guya ki, amazonların ermənilərlə əlaqəsi var və tarixdə iz qoyan amazonlar dünyaya, o cümlədən də Yunanıstana Ermənistandan "yayılıb".**

# Ermənilər Türk dünyası eposunun məşhur amazonkalarını da saxtalaşdırdı...

***Ənvər Çingizoğlu:** "Ermənilər Urartunun tarixini saxtalaşdıraraq özlərinə bağlamaq istədikləri kimi, amazonlara qarşı da iddialar irəli sürürlər"*

Erməni mətbuatının iddiasına görə, guya erməni arxeoloqları 2017-ci ildə Lori vilayətində yerləşən Bovir-1 adlanan qəbiristanlıqda bir qadın skeleti aşkarlayıblar, həmin məzardan tapılan zərgərlik və keramika məmulatlarının tədqiqindən sonra məlum olub ki, bu tapıntı e.ə 8-6-cı əsrlərə aiddir. Özlərini Urartu dövlətinə yamaq etməyə cəhd edən və bununla bağlı mənasız iddialar səsləndirən erməni arxeoloqları saxtakarlığın quyruğunu əldən verməyərək həmin tapıntının Urartu dövləti ilə əlaqəsi olduğunu deyiblər. Ermənilər iddia edirlər ki, araşdırmalar zamanı həmin bəzək əşyalarının 20 yaşlı döyüşçü qadına məxsus olduğu aşkarlanıb. Onların fikrincə, bu daş-qaşın qadının cəsədi yanında aşkarlanması onun yüksək təbəqəyə mənsub olduğunu deməyə əsas verir. Ermənilər, həmçinin, qadının döyüşçü olduğunu da deyirlər. Guya ki, qadının əzələlərinin tədqiqi də bunu deməyə əsas verir. Ermənilər yazırlar ki, bu qadının sol dizinə dəmir nizə sancılması bundan xəbər verir. Onlar, həmçinin, qadının bədənində balta və qılınc yaraları da aşkarlayıblar. Arxeoloqlar belə nəticəyə gəliblər ki, qadın döyüş meydanında öldürülüb. Ermənilərin iddiasına görə, Urartu dövlətində erməni mənşəli (?) belə döyüşkən qadınlar olub (?). "Urartu dövlətində "ermənilərin kökünə bağlı" bu qadınlar ərləri ilə çiyin-çiyinə öz ölkələri uğrunda döyüşüblər. Urartudakı bu qadınlar yunanların amazon qadınlar haqqında təsəvvürünü formalaşdırıb (?)" - deyə erməni mediası yazıb.

Guya ki, amazon qadınlar erməni kökənlidir və onlar bütün dünyaya yayılıblar.

Qeyd edək ki, amazonlar yunan mifologiyasında Kiçik Asiyada, Qafqaz dağlarının ətəklərində və ya Azov dənizi ətrafında məskunlaşmış döyüşkən qadınlar qəbiləsi olub. "Amazon" adı guya kamandan ox atmağın asan olması üçün qızların sol döşlərinin yandırılması adətindən meydana gəlib. Amazonlar bütün vaxtlarını döyüşlərdə keçirir, oxkaman, döyüş baltası, yüngül qalxanla silahlanır, özlərinə də dəbilqə və paltarlar düzəldirmişlər. Amazonlar qonşu tayfaların kişiləri ilə nəsli davam etdirmək naminə nikaha girir və bu zaman doğulan oğlanı öldürür (ya da atalarına verir), qızları isə özlərinə götürürmüşlər. Tarixçilərin fikrincə, amazonlar haqqında əfsanələrdə və onların olimpia qəhrəmanları (Herakl və s.) ilə mübarizələrində matriarxat dövrü əks olunub.

Roma tarixçilərinin söylədiklərinə görə, e.ə. 65-ci ildə Pompeyin başçılığı ilə romalıların Kozisin başçılıq etdiyi albanlara qarşı savaşında albanların tərəfində həm də alban qadınları iştirak edirdilər. Əsir götürülən alban döyüşçüləri arasında çoxlu yaralı qadın da var idi. Alban qadınlarının igidliyi romalıları heyran etmişdi. Məhz bu qadınların cəsurluğu romalılar arasında Qafqaz Albaniyasının şimalındakı dağlarda döyüşkən amazon tayfalarının yaşaması və albanların Romaya qarşı savaşında onlara kömək etmələri haqqında əfsanənin yaranmasına səbəb olub.



*"Amazonlar türk mənşəli olub, onlar bizim torpaqlarımızda yaşayıblar"*

Herodot amazonkaların şimali Qara dəniz hövzəsində skiflərlə qonşuluqda yaşadığını göstərirdi. Amazonkaların Azərbaycanda yaşamaları haqqında əsas məlumatları isə Strabon "Coğrafiya" əsərində verib. Strabon bu haqda yazır: "Albaniyanın yuxarı dağlarında amazonkalar yaşayır. Pompeyi yürüşdə müşayiət edən və Albaniyaya gələn Feofan söyləyir ki, skif tayfaları olan Hell və Lehlər amazonkalar və albanlar arasında yaşayırlar. Bu ölkədə həmin tayfalarla amazonkalar arasında Mermodalida çayı axır. Bu yerlərlə yaxşı tanış olan başqa yazıçılar, onların içərisində Skepsiyalı Metrodor və Qipsikart iddia edirlər ki, amazonkalar Qafqaz dağlarının Avn adlanan şimal ətəklərində qarqarlarla qonşuluqda yaşayırlar. Amazonkalar bütün vaxtlarını özləri üçün istifadə edirlər, yer şumlayır, bağçılıq, mal-qara, xüsusilə atlara qulluq etmək kimi mühüm işlər görürlər. Amazonkalar at belində ovla və hərbi təlimlə məşğul olurlar. Onların saçlarını uşaq vaxtı yandırırlar ki, hər iş görəndə, xüsusilə nizə atanda rahat olsunlar. Onlar, həmçinin, ox, yay, yüngül qalxan və balta da işlədirlər. Onlar vəhşi heyvan dərisinə bürünəcək dəbilqə və kəmər hazırlayırlar. Yazdakı iki xüsusi ayda onları qarqarlardan ayıran qonşu dağa qalxırlar. Çox qədim bir mərasimə görə qarqarlar da həmin dağa qalxırlar ki, qadınlarla birgə qurban verib, uşaq doğmaları üçün onlarla yaşasınlar; kim kimlə düşdü, onlar xəlvət, qaranlıqda görüşürlər, qadınları hamilə edərək qarqarlar onları evlərinə buraxırlar. Qadın cinsindən olan bütün uşaqları amazonkalar özlərində saxlayırlar, kişi cinsindən olanları isə qarqarlara verirlər. Hər bir qarqar onlara gətirilən körpəni oğlu bilib böyütməlidir" - deyə tarixi mənbələrdə yazılır.

Açıq göründüyü kimi, burada nə ermənilərdən, nə də hansısa bir Ermənistandan danışılır. Amazonların məskəninin qədim Azərbaycan torpaqları olduğu aşkar görsənir.

Tanınmış etnoqraf-alim Ənvər Çingizoğlu "Bakı-Xəbər"ə bildirdi ki, indiki Ermənistan ərazisində amazon qadına məxsus skeletin və aksesuarların tapılması tam mümkündür. Müasir Ermənistan ərazisinin qədim türk torpaqları olduğunu deyən Ə.Çingizoğlunun sözlərinə görə, ermənilər amazon qadına məxsus tapıntını Azərbaycan-türk torpağında aşkarlayıb. "İndiki Ermənistan adlandırılan Qərbi Azərbaycanda tariximizin elə açılmamış səhifələri mövcuddur ki, ermənilər o səhifələri saxtalaşdırmaqla məşğul olurlar. Bugünkü Ermənistan ərazisində amazon qəbrinin aşkarlanması mümkündür, çünki ermənilərin məskunlaşdığı bu torpaqlar qədim türk torpaqlarıdır. Birmənalı olaraq amazonların ermənilərlə heç bir əlaqəsi yoxdur. Amazonlar türk mənşəli olub, onlar bizim torpaqlarımızda yaşayıblar, bu cəngavər qadınlar əsl döyüşçülər olublar. Tarixdə erməni qadını döyüşkən olmayıb, ox-yay atmağın, nizə işlətməyin, qılınc oynatmağın, cəng etməyin erməni qadını ilə yaxından-uzaqdan heç bir əlaqəsi yoxdur. Erməni qadınlarının tarixən bir vəzifəsi olub, onu da bütün dünya bilir. Türk qadınları tarix boyu qılınc çalıb, ox, nizə atıb, cəng edib, qəhrəmanlıq göstəriblər. Amazon qadınların Urartu ərazisində yaşaması təbiidir, çünki Urartu da bizim dövlətimiz olub. Ermənilər Türkiyədən, İrandan, Livandan Azərbaycan ərazisinə köçüblər, onlar bura köçənə qədər bu torpaqlar da vardı, onun mədəniyyəti də, insanları da, öz əzəli sahibləri də. Ermənilər Urartunun tarixini saxtalaşdıraraq özlərinə bağlamaq istədikləri kimi, amazonlara qarşı da iddialar irəli sürürlər, amma amazonların erməni kökənli olması tamamilə cəfəngiyyatdır" - deyə bildirən Ə.Çingizoğlunun sözlərinə görə, bizim eradan əvvəl yaşamış amazonların şöhrəti bütün dünyanı dolaşıb və onlar öz döyüşkənliyi, cəsarəti ilə dünyanın ən məşhur sərkərdələrini belə mat qoyublar.

***İradə SARIYEVA***

**Bu gün ölkədə geniş vüsət alan islahatların əsas istiqamətlərindən biri də şəffaflıq dərəcəsinin yüksəlməsi, bunun, xüsusən iqtisadi müstəvidə təmin edilməsidir. Belə vəziyyətdə aktuallaşan məqamlardan biri də elektron ticarətlə bağlıdır. Bu barədə danışmazdan öncə qeyd edək ki, elektron ticarət artıq dünya miqyasında ənənəvi ticarətin mövqeyini sürətlə sarsıdır və həcmi sürətlə artır.**

# Azərbaycanda islahatların sürəti ilə elektron ticarətə keçid arasında uyğunsuzluq var...




Təkcə ötən il qlobal pərakəndə ticarətin ümumi dövriyyəsi 24 trilyon dollar olub ki, bunun 3,5 trilyon dolları elektron ticarətin payına düşüb və dövriyyənin 12 faizini təşkil edib. Bundan öncəki göstərici isə 10 faiz idi. Cari ilin sonunda elektron ticarətin həcminin 21 faiz artaraq 4 trilyon dollar olacağı gözlənilir, bu da pərakəndə ticarətin 14 faizini təşkil edəcək. Növbəti 5 ildə isə elektron ticarətin həcminin 6,5 trilyon dollara çatacağı və pərakəndə ticarətin 22 faizini təşkil edəcəyi gözlənilir. Proqnozlara görə, bu ilin sonunda dünya əhalisinin dörddəbiri rəqəmsal alıcı olacaq. Bu isə 2 milyard əhali deməkdir. Hesablamalar göstərir ki, 2040-cı ilədək dünya əhalisinin 95 faizi öz ticarətini rəqəmsal ödənişlər vasitəsilə həyata keçirəcək. Belə vəziyyətdə ölkəmizdə də elektron ticarətin həcminin sürətlə artımı zərurətə çevrilir. Bu, yuxarıda qeyd olunduğu kimi, şəffaflıq baxımından da olduqca vacibdir və həm də dövrün tələbi kimi çıxış edir. İndilikdə isə ölkədə bu sahədə vəziyyətin qənaətbəxş olduğunu söyləmək olmaz. Məsələ burasındadır ki, ölkəmizdə elektron ticarətin artım sürəti ildə 2 dəfəyə yaxın olsa da, pərakəndə ticarət dövriyyəsində payı 0,2 faizdir. Halbuki, ABŞ və Avropa ölkələrində bu göstərici 10-15 faizə çatır. Elektron ticarət həcminə görə ilk beşlikdəki ölkələr hazırda ABŞ, Çin, İngiltərə, Yaponiya və Almaniyadır. Ekspert hesablamaları göstərir ki, ölkədə yüksək internet təminatı fonunda Azərbaycanda pərakəndə satışlarda elektron ticarətin payı ilk mərhələdə 7 faizə çata bilər. Digər tərəfdən nəzərə alaq ki, prosesdə hökumət özü də maraqlıdır. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov bu xüsusda qeyd edir ki, Azərbaycanda elektron ticarətin inkişafı prioritet olaraq müəyyən edilib. Prioritet istiqamətlər əsasən elektron ticarətin əhatə dairəsinin genişləndirilməsi və pərakəndə satışlarda elektron ticarətin payının artırılmasını ön plana çəkir:"Azərbaycanda elektron ticarətin əhatə dairəsinin genişləndirilməsi, o cümlədən pərakəndə satışlarda elektron ticarətin payının artırılması, transsərhəd ticarətin inkişafı prioritet müəyyən edilib. Ölkədə nağdsız ödənişlərin həcminin genişləndirilməsi üçün hüquqi zəmin yaranıb. Hesab edirik ki, elektron ticarətin inkişafı üçün 3 tərəf - vətəndaş, biznes subyektləri və dövlət strukturları birgə məsuliyyət daşıyır. Vətəndaşın əsas məsuliyyəti rəqəmsal biliklərə yiyələnmək, ödənişləri elektron qaydada həyata keçirməkdən ibarətdirsə, sahibkar istehsal və ixrac etdiyi malların onlayn satışını təşkil etməklə əhalinin bu prosesə marağını artıra bilər. Dövlət isə tənzimləmə sahəsində addımlar atmaqla bu sahədə olan ekosistemin effektivliyini artıra, eləcə də elektron ticarəti təşviq edə bilər. Bir sözlə, iqtisadi subyektlər arasında nağdsız dövriyyənin artması və əhalidə nağdsız ödəniş vərdişlərinin formalaşması elektron ticarətin böyüməsi üçün əsas amillər rolunda çıxış edir".

Bu açıqlamadan bir daha görünür ki, dövlət elektron ticarətin inkişafında maraqlı tərəf qismində çıxış edir. Bu, həm də nağdsız dövriyyənin həcminin genişlənməsi üçün olduqca mühümdür. Belə vəziyyət iqtisadi dövriyyələri şəffaflaşdırmaqla nağd pulla bağlı xərclərin, bank və müəssisələrin əməliyyat xərclərinin azalmasına da gətirib çıxarır. Bu da, öz növbəsində, vergi bazasının, əhali və müəssisələrin maliyyə xidmətlərinə çıxış imkanlarının genişləndirilməsinə, bank sektorunun kreditləşmə və investisiya imkanlarının gücləndirilməsinə və son nəticədə iqtisadi artıma təkan verir. Digər tərəfdən o da faktdır ki, Azərbaycanda elektron hökumətin imkanları getdikcə artır. Dövlət qurumlarının göstərdiyi elektron xidmətlərin sayı və çeşidi də çoxalır. Artıq dövlət büdcəsinə ödənişlərin aparılması tam elektronlaşdırılıb. Hər bir vətəndaş və ya biznes subyekti internet vasitəsilə mobil və ya internet bankçılığın, o cümlədən plastik kartların köməyilə bu ödənişləri edə bilir. Bu isə o deməkdir ki, əhali elektron ticarətin reallaşmasında da yaxından iştirak edə bilər. Qeyd olunduğu kimi isə. elektron ticarətin böyüməsi üçün əsas şərt iqtisadi subyektlər arasında nağdsız dövriyyənin artmasına və əhalidə nağdsız ödəniş vərdişlərinin formalaşmasına nail olmaqdır. Bunun üçün dövlət sahibkarlara hərtərəfli dəstəyi də nəzərdə tutur. Elə Vergi Məcəlləsinə nəzərdə tutulan son dəyişikliklərin üstünlüklərindən biri də nağdsız ödənişlərə görə sahibkarlara vergi güzəştinin tətbiqinin nəzərdə tutulmasıdır. Ekspertlərə görə, bu güzəştlər sahibkarları elektron məhsul satışına maraqlandıra bilər. Qeyd edək ki, ölkədə nağdsız əməliyyatların həcminin artırılması üçün artıq müxtəlif addımlar atılır, o cümlədən stimullaşdırıcı tədbirlər görülür. Məsələn, cari ilin əvvəlindən Vergi Məcəlləsində qüvvəyə minmiş dəyişikliyə əsasən, pos-terminalla həyata keçirilən ödənişlərə görə sahibkarlara müəyyən güzəştlər verilib. Bu dəyişikliyə əsasən, pərakəndə satış qaydasında malların satışının həyata keçirilməsi üzrə ticarət fəaliyyəti ilə məşğul olan fərdi sahibkar tərəfindən büdcəyə ödənilməli olan gəlir vergisinin məbləği 3 il müddətinə 25 faiz həcmində azaldılır. Amma bunun üçün sahibkarın satışı pos-terminal vasiətsilə həyata keçirməsi mühüm şərtdir.

Bu güzəştin alınması hüququ müəyyən edilərkən, vergi orqanında uçotda olan şəxslər tərəfindən pos-terminal vasitəsilə aparılan ödənişlərin məbləği nəzərə alınmır. Onu da xatırladaq ki, ölkədə nağdsız ödəmələrin tətbiqi səviyyəsinin artırılması üçün ən mühüm sənədlərdən biri Mərkəzi Bank tərəfindən hazırlanan "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı" hesab olunur. Sənədin əsas məqsədi iqtisadiyyatda nağdsız ödənişlərlə aparılan maliyyə əməliyyatlarının həcminin əhəmiyyətli dərəcədə genişlənməsi, nağd pul tədavülü ilə bağlı yaranan tranzaksiya xərclərinin azaldılmasıdır. Proqram bütövlükdə ölkənin nağdsız cəmiyyətə transformasiyasına dair yol xəritəsini ehtiva edir.

***Ramil QULİYEV***

# Multikulturalizm və milli təhlükəsizlik

**Milli təhlükəsizliyin qorunması hər bir xalqın inkişafı, hər bir dövlətin varlığı üçün mühüm amildir. Müstəqil Azərbaycanda milli təhlükəsizliyin təminatı sisteminin əsasını qoyan Ulu öndər Heydər Əliyev yeni dövlət quruculuğunun ilk illərində ölkədə dərin ictimai-siyasi və sosial-iqtisadi böhranın doğurduğu daxili və xarici təhdidlərin qarşısının alınması, vətəndaş qarşıdurmasının dayandırılması, dövlət idarəçiliyinin formalaşdırılması kimi təcili və təxirəsalınmaz təhlükəsizlik tədbirlərini həyata keçirdi.**

Məhz davamlı sabitliyin təmin edilməsi, hərtərəfli inkişaf yollarının önünün açılması milli təhlükəsizliyin konseptual əsaslarının yaradılması üçün ardıcıl siyasət aparılmasına imkan verdi. Nəzəri əsasları Heydər Əliyevin irəli sürdüyü müddəalara söykənən "Milli təhlükəsizlik haqqında" qanun qəbul edildi, Milli Təhlükəsizlik Konsepsiyası hazırlandı və milli maraqların bütün aspektlərini əhatə edən təhlükəsizlik syasəti formalaşdırıldı. Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə hazırlanan konsepsiya dövlətimizin müstəqilliyini, ərazi bütövlüyünü, konstitusiya quruluşunu, xalqın və ölkənin milli maraqlarını daxili və xarici təhdidlərdən qorumağa yönəlmiş siyasətin məqsəd, prinsip və yanaşmalarını müəyyən edir.

Milli təhlükəsizliyə təhdidlərin vaxtında aşkarlanması və və qarşısının alınması, bu məqsədlə zəruri qüvvə və vasitələrin yaradılması milli təhlükəsizliyin təminatı sisteminin mühüm vəzifəsidir. Milli və dini münasibətlərin kəskinləşməsi, etnik və dini ekstremizm hallarının yayılması milli təhlükəsizlik üçün əsas təhdidlərdər sırasındadır. Belə halların qarşısının alınması üçün vətənpərvərliyə və millətlərarası həmrəyliyə əsaslanan ümummilli psixologiya formalaşdırılması, xalqın vahidliyinin möhkəmləndirilməsi, millətlər və dini təriqətlər arasında münasibətlərin düzgün tənzimlənməsi, mövcud məzhəb ayrılıqlarından və müxtəlif dini baxışlardan siyasi məqsədlər üçün istifadə edilməsinə yol verilməməsi mühüm şərtdir ki, ölkəmizdə milli təhlükəsizlik sahəsində həyata keçirilən dövlət siyasətinin mərkəzində də bu amillər dayanır. Təsadüfi deyil ki, milli, dini, irqi, mədəni və s. fərqliliklərin qorunmasını, milli həmrylikə etnik-mədəni müxtəlifliyin bir-biri ilə üzvi şəkildə uzlaşdırılmasını özündə ehtiva edən multikultural təhlükəsizlik də milli təhlükəsizliyin mühüm elementləri sırasına daxil edilir. Ulu öndər Heydər Əliyev deyirdi: "Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir". Bu baxımdan çoxmədəniyyətlilik - multikulturalizm Azərbaycanda qədim ənənələrə söykənir, xalqımızın təşəkkülündə və formalaşmasında etnik müxtəliflik amilinin mühüm əhəmiyyət kəsb etməsi ilə bilavasitə bağlıdır. Bu coğrafi ərazidə müxtəlif dinlərə etiqad edənlərin və etnik birliklərin tarixən dostluq və mehriban qonşuluq şəraitində yaşaması mövcud multikultural mühitin yaranması üçün əsas zəmin olub. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının sədri, akademik Kamal Abdullanın təbirincə desək, multikultural təhlükəsizliyin ümumi mahiyyəti hər hansı bir ölkədə irqindən, milliyyətindən, dinindən, dilindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının müdafiə olunması, etnik, dini, irqi mənsubiyyətindən asılı olmayaraq bütün xalqların, etnik qrupların mədəni dəyərlərinin qorunması və inkişaf etdirilməsi deməkdir.

Azərbaycan Respublikası Konstitusiyasında milli mənsubiyyət hüququ əsas vətəndaş və insan hüquqlarından biri kimi təsbit olunub. Konstitusiyanın 44-cü maddəsi hər kəsə milli mənsubiyyətini qoruyub saxlamaq hüququ verir. Həmin maddənin digər bəndinə görə isə, heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz. Bu gün ölkəmizdə yaşayan bütün xalqların və etnosların nümayəndələri bu hüquqdan bərabər şəkildə istifadə edirlər. Azərbaycan dövləti hər bir vətəndaşının təhsil və karyerası üçün eyni şərait yaratmaqla yanaşı, onların öz milli mədəni dəyərlərini qoruması və zənginləşdirməsinə də lazımi dəstək verir.

Respublikamızda ruslar, ermənilər, ukraynalılar, beloruslar, gürcülər, avarlar, ləzgilər, başqırdlar, tatarlar, yəhudilər, kürdlər, osetinlər, laklar kimi milli azlıqlar, talışlar, udilər, dağ yəhudiləri, saxurlar kimi azsaylı xalqlar, Ahısxa türkləri, tatlar, lahıclar, buduqlar, qrızlar, haputlar, ceklər, xınalıqlar, ingiloylar, Krım tatarları, gürcü yəhudiləri, kazaklar, tabasaranlar kimi etnik azlıqlar əsas çoxluq təşkil edən azərbaycanlı-türk xalqı ilə mehriban qonşuluq şəraitində yaşayırlar. Dostluq, qohumluq əlaqələri onları bir-birinə doğmalaşdırır və sıx bağlayır. Ölkə həyatının bütün sahələrində qazanılan uğurlarda həmvətənimiz olan hər bir etnosun nümayəndələrinin payı və əməyi vardır. Vətəndaş cəmiyyəti instiutlarında və dövlət idarəçiliyinin ən yüksək pillələrində də onlar geniş təmsil olunurlar.



Çox təəssüf ki, erməni millətçilərinin Azərbaycandakı multikultural mühitin pozulmasına yönəlmiş cəhdlərinin qarşısının vaxtında alınmaması, xalqımız və müstəqil dövlətimiz üçün hələ də fəsadları davam edən, torpaqlarımızın işğalı ilə nəticələnən hadisələrə gətirib çıxardı. Həmin dövrdə hakimiyyətdə olanların qeyri-adekvat, ağılsız siyasətinin nəticələrini hələ də aradan qaldırmaq mümkün olmayıb. Ulu öndər Heydər Əliyevin vaxtilə qeyd etdiyi kimi, "Dağlıq Qarabağ faciəsinin bir qütbündə erməni separatçılığı, erməni terrorizmi, Azərbaycana qarşı torpaq iddiaları durursa, digər qütbündə, - nə qədər acı olsa da, bunu etiraf etmək lazımdır, - bizim bəzi siyasətçilərimizin səriştəsizliyi, hakimiyyət hərisliyi, hədsiz-hüdudsuz şəxsi ambisiyaları durur".

Tariximizin elə səhifələri var ki, onları daim yadda saxlamaq, onlardan ibrət götürmək vacibdir. Azərbaycanda ictimai-siyasi və hərbi böhranın dərinləşdiyi ötən əsrin 90-ci illərinin əvvəllərində milli münasibətlərə də ciddi təhdidlər yaranmış, respublikanın şimalında və cənubunda etnik zəmində separatçılıq baş qaldırmışdı. Yalnız Ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi rəhbərliyə qayıdışı ilə bu cəhdlərin qarşısı alındı və milli birliyin təmin edilməsi istiqamətində zəruri tədbirlər həyata keçirildi. Məhz Ulu öndərin müəyyənləşdirdiyi, əsasını Azərbaycana mənsubluq, Vətənə bağlılıq, Azərbaycan dilinə və mədəniyyətinə sevgi, müstəqil dövlətçiliyimizə sədaqət, onun varlığının və dəyərlərinin qorunması üçün bərabər məsuliyyət daşımaq kimi vacib müddəalar təşkil edən azərbaycançılıq ideyası bu gün ölkəmizdəki multikultural mühitdə birləşdirici rol oynamaqla milli təhlükəsizliyin mühüm təminatlarından birinə çevrilib.

Ölkəmizdə hər bir etnosun unikal mədəni dəyərlərinin qorunmasına və zənginləşdirilməsinə, həmçinin öz ana dilindən sərbəst istifadə etməsinə şərait şərait yaradılıb. Azərbaycan Respublikası Konstitusiyasının vətəndaşların ana dilindən istifadə etmək hüququnu təsbit edən 45 maddəsinə əsasən, hər kəs istədiyi dildə tərbiyə və təhsil ala, yaradıcılıqla məşğul ola bilər, heç kəs ana dilindən istifadə hüququndan məhrum edilə bilməz. Dövlətimiz "Regional dillərin və ya azsaylı xalqların dillərinin Avropa Xartiyası"na qoşulub və onun prinsiplərini həyata keçirmək üçün əməli tədbirlər görür. Ölkəmizdəki milli azlıqların öz dillərində məktəblər açmaq, qəzet, tədris və metodiki vəsaitlər hazırlayıb nəşr etdirmək imkanları var. Bununla belə, onlar multikultural mühitdə mühüm ünsiyyət vasitəsi olan dövlət dilini - Azərbaycan dilini bilir və ona sevgi ilə bağlanırlar.

Milli təhlükəsizlik üçün vacib istiqamətlərdən olan dini tolerantlıq Azərbaycanın çox böyük nailiyyətlərindəndir. Azərbaycan dövləti cəmiyyətin milli maraqlanna uyğun siyasət yeridərək, dini tolerantlıq mühitinin qorunmasına və inkişafına xüsusi diqqət və qayğı göstərir. Bu sahədə də əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş strateji xətt uğurla davam etdirilir. Ölkəmizdə islam dini ilə yanaşı xristian və yəhudi dinləri əsrlər boyu birgə yaşamaqdadır. Dünya dini liderlərinin bu günlərdə Bakıda keçirilmiş II Sammiti Azərbaycandakı qədim dinlərarası ənənələrə qlobal miqyasda hörmət və ehtiramın növbəti təzahürü oldu. Prezident İlham Əliyev sammitdəki çıxışında deyib: "Əsrlər boyu ölkəmizdə bütün dinlərin, bütün etnik qrupların nümayəndələri bir ailə kimi sülh, mehribanlıq, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Azərbaycan çoxkonfessiyalı, çoxmillətli bir ölkədir və bu, bizim böyük sərvətimizdir. Dini və etnik müxtəlifliyimiz bizim böyük sərvətimizdir. Azərbaycanda uğurlu inkişafın, sabitliyin bərqərar olması istiqamətində atılmış bütün addımların arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər dayanır".

İctimai sabitlik milli təhlükəsizliyin qorunması üçün əsas şərtdir və Azərbaycanın bütün sahələrdə uğurlu dövlət siyasəti onun təməlində dayanan milli birliyi və həmrəyliyi tam təmin edir. Milli sərvətimiz olan bu birliyin və həmrəyliyin qədrini bilmək, onu qəsdlərdən qorumaq hər bir vətəndaşın borcudur. Çoxəsrlik tarixinin böyük hissəsini müstəmləkə altında yaşamış, yadellilər tərəfindən sərvətləri talan edilmiş çoxmillətli xalqımız özünün müstəqil dövlətinin keşiyində ayıqsayıq dayanıb.

***Samir ƏLİFOV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının 2-ci kurs tələbəsi***

# Rus sektorunun birinci sinfinə uşaqların imtahanla qəbulu, hətta "kəsilməsi" doğru praktika sayıla bilərmi...

## Kamran Əsədov: "Dövlətin təqdim etdiyi istənilən dildə təhsil almaq hər bir vətəndaşın konstitusion hüququdur"

**Son dövrlər övladlarının rus dili bölməsində təhsil almasını istəyən valideynlərin sayı artır. Rus dili bölməsində yerlər məhdud olduğundan, bu mübahisələrə səbəb olur. Müəllim heyətini narahat edən digər məsələ rus dilindən anlayışı olmayan uşaqların da bu bölmədə təhsil almasıdır.**



Lakin yeni qaydalara görə, rus dilini bilməyən uşaqlar bu bölmədə təhsil ala bilməyəcəklər.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin məlumatına əsasən, 2019-2020-ci tədris ili üçün I sinfə şagird qəbulu zamanı valideyn digər dildə tədris aparılan bölməni seçdiyi zaman uşağın həmin dil üzrə şifahi nitq bacarıqları qiymətləndiriləcək. Digər dildə tədris aparılan bölmə üzrə uşağın şifahi nitq bacarıqlarının qiymətləndirilməsi dedikdə onun dinlədiyini anlamaq, ünsiyyət qurmaq və öz fikrini sadə formada ifadə etmək bacarığının olub-olmaması nəzərdə tutulur. Onu da bildirək ki, digər dildə tədris aparılan bölmə üzrə uşaqların I siniflərə qəbulu onların həmin dil üzrə yalnız şifahi nitq bacarıqları müvafiq qaydada təşkil edilmiş müsahibə komissiyaları tərəfindən yoxlanır.

Övladının rus bölməsində təhsil almasını istəyənlər qəbul qaydalarının sərtləşdirilməsinin əleyhinədirlər.

Məlumat üçün bildirək ki, Azərbaycanda 340 orta məktəbdə tədris rus dilində aparılır. Bu, orta məktəblərin 7,6 faizində tədrisin rus dilində aparılması deməkdir. Ölkədə orta məktəblərin ümumi sayı 4472-dir. Tədrisin rus dilində aparıldığı 340 məktəbdə 90 min şagird rus dilində təhsil alır. Bu, ölkədə ümumən şagirdlərin 6,3 faizinin rus dilində təhsil alması deməkdir. Azərbaycanda şagirdlərin ümumi sayı 1 milyon 416 min nəfərdir. Həmin şagirdlərin 450 mindən çoxu rus dilini xarici dil kimi öyrənir ki, bu da ölkə şagirdlərinin 32 faizi deməkdir. Ölkədə fəaliyyət göstərən ali təhsil müəssisələrində isə bütün ixtisasların 70 faizdən çoxu rus dilində də tədris olunur.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində olan ümumtəhsil müəssisələrindən 141-də tədris Azərbaycan dili ilə yanaşı, rus dilində aparılır. Rus bölməsi üzrə şagirdlərin sayı Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində olan ümumtəhsil məktəblərində təhsil alan ümumi şagird sayının 17 faizini təşkil edir.

Elə valideynlər var ki, onlar rus dilini bilmədiyi halda, övladının qeyd olunan xarici dildə təhsil almasını istəyirlər. Lakin uşaqların rus dilindən anlayışının olmaması onların həmin dil üzrə təhsil almasına mane olur. Qeyd edək ki, o qədər ailə var ki, valideynlər rus dilini bilmədiyi halda, uşaq həmin dili orta məktəbdə mənimsəyib. Ekspertlərin fikrincə, uşaq rus dilini bilməsə belə onun qeyd olunan dildə təhsil almasına mane olmaq təhsil hüququnun pozulmasına səbəb olur.

Təhsil eksperti Kamran Əsədov məsələ ilə bağlı bildirdi ki, dövlətin təqdim etdiyi istənilən dildə təhsil almaq hər bir vətəndaşın konstitusuon hüququdur: "Azərbaycan orta ümumtəhsil məktəblərində, qanunvericiliyin tələblərinə uyğun olaraq, təhsil icbaridir. AR Konstitusiyası və "Təhsil haqqında" Qanuna görə, məktəb yaşına çatmış hər bir şəxs dövlət təhsil müəssisələrində istədiyi bölmədə təhsil almaq hüququna malikdir. Dövlət bu öhdəliyi üzərinə götürür və bütün hallarda şagirdin bilik və bacarıqlarına, istəyinə uyğun olaraq arzu etdiyi bölmədə təhsilini təmin etməlidir. Uzun müddətdir Azərbaycanda valideynlər rus bölməsini rahatlıqla seçə bilirdilər. Amma son 2 ildir tətbiq olunan qaydaya əsasən, orta məktəblərin rus bölməsini seçən şagirdlər müsahibədən keçməlidirlər. Bu da anlaşılandır. Çünki son illər rus bölməsini seçən şagirdlərin sayında kəskin artım olub. Birincisi, valideynlər öz övladlarına xarici dili mükəmməl öyrətmək istəyirlər. İkincisi, rus bölməsi abituriyentlərinin qəbul imtahanlarında ali təhsil müəssisələrinə daha az balla qəbul olunma imkanı var. Üçüncüsü, onların dünya ədəbiyyatına çıxış imkanlarının geniş olması intellektual səviyyələrinin də yüksək olmasına gətirib çıxarır".

*"Rus bölməsində birinci sinfə ildə 15 min nəfər qəbul olunursa, məzun olanda bu say 6-7 minə düşür"*

Ekspertin sözlərinə görə, rus bölməsinə müsahibə yolu ilə qəbul keçirilməsi müəyyən qədər təhsil hüququnun məhdudlaşdırılması olsa da, anlaşılandır: "Bütün uşaqlar rus bölməsinə qəbul ediləndə sinifdə balans pozulur. Sinfin yarısı rus dilindən bilik və bacarıqlara malik olmur. Müəllim bir tərəfdən rus dilindən anlayışı olmayanlara ilkin anlayışları öyrətməyə, digər tərəfdən anlayışı olanların bilik və bacarıqlarını yüksəltməyə çalışır. Yaxşı olar ki, gələcəkdə övladını rus bölməsində oxutmaq istəyən valideynlər onları dövlət tərəfindən pulsuz təşkil edilən hazırlıq dərslərinə yazdırsınlar. 3-4 yaşlarından etibarən uşaqlarını müəyyən qədər hazırlıqlara qoysunlar ki, uşaqlar ibtidai sinfə başlayanda çətinlik çəkməsinlər".

K.Əsədov onu da əlavə etdi ki, bəzən valideynlərin heç biri rus dilində anlamır, danışmır, amma uşağını rus bölməsinə qoyur:"Yuxarı siniflərə qalxdıqca, tədris proqramı ağırlaşdıqca, uşaqlar Azərbaycan bölməsinə keçmək istəyir. Bu zaman onun hər iki bölmədə yarımçıq təhsili olur. Rus bölməsindəki uşaqların təxminən 30 faizi 2-ci, 3-cü siniflərdə Azərbaycan bölməsinə keçir. Rus bölməsində birinci sinfə ildə 15 min nəfər qəbul olunursa, məzun olanda bu say 6-7 minə düşür. Çünki yuxarı siniflərə doğru akademik proqram gücləndiyi üçün, uşaqlar ona yad olan bir dildə tədrisi qavraya bilmir. Rus dilində ilkin bilik və bacarıqlara malik olan şəxslər rus bölməsinə yazılmalıdırlar. Digər tərəfdən Azərbaycan bölməsində təhsilin keyfiyyəti yüksəldilsə, rus və ingilis dilinin tədrisi keyfiyyətli şəkildə artsa, valideynlər lazım olmadığı halda rus bölməsini seçməzlər. Düşünürəm ki, valideynlərin bu seçimi Azərbaycan bölməsində rus və ingilis dilinin keyfiyyətli keçilməməsi ilə bağlıdır".

**Günel CƏLİLOVA**

# "Sədərək" bazarında avtomobilləri yararsız hala düşmüş sürücülər çarəsiz durumda...

## İlqar Hüseynli: "Sədərək" ticarət mərkəzinin giriş hissəsindəki ərazidə yol təsərrüfatında olan qüsur səbəbindən avtomobillərə zərər dəyib"

**Bir neçə gün öncə yağan aramsız yağış "Sədərək" ticarət mərkəzinin giriş hissəsində olan ərazini bərbad vəziyyətə salıb. Nəticədə bir neçə avtomobil suda batıb, bəzilərinə isə ciddi zərər dəyib. Təbii ki, bu hal, ilk növbədə, avtomobil sahiblərini zərərə salıb.**




Yağış yağan günlərdə maşın sahibləri suda batan nəqliyyat vasitələrini həmin ərazidən çıxara bilməyiblər.

Avtomobil sahibləri deyirlər ki, ərazidəki vəziyyətdən xəbərsiz olan xeyli sayda avtomobil sahibi burada avtomobillə sudan keçməyə cəhd edərkən mühərriklər sıradan çıxıb. Avtomobili sudan zərər görmüş sürücülərdən biri hətta taxta parçası ilə maşının suya düşmüş nömrəsini axtarmalı olub.

Məlumdur ki, avtomobil sahibləri əksər hallarda nəqliyyat vasitələrini kasko sığorta etdirmirlər. Sürücülər icbari sığortaya üstünlük verirlər. Həmin avtomobillərin kasko sığortası olsa id, dəymiş zərər kasko şirkəti tərəfindən ödənilərdi. Qeyd edək ki, icbari sığorta olan zaman heç bir vəsait ödənilmir. Belə olan halda, vətəndaşa dəymiş ziyanı kim ödəməlidir? Sürücülər və ekspertlər bildirirlər ki, bu kimi hallarda hadisənin baş verdiyi ərazinin sahibi məsuliyyət daşıyır. "Sədərək" ticarət mərkəzinin infrastrukturu normal şəkildə qurulsa idi, avtomobillər suda batıb yararsız vəziyyətə düşməzdilər.

Sosial sahə üzrə ekspert İlqar Hüseynli bildirdi ki, "Binə" və "Sədərək" ticarət mərkəzləri yaxınlığındakı yol acınacaqlı vəziyyətdədir. Avtomobilinə dəymiş zərərə görə ərazi hansı quruma aiddirsə, məhkəməyə müraciət edərək, dəymiş zərəri tələb edə bilər: "Qanunvericiliyə əsasən, yol təsərrüfatında olan qüsur səbəbindən sürücülərə hər hansı zərər dəyərsə, həmin şəxs məhkəməyə müraciət edib, dəymiş zərəri tələb edə bilər. "Sədərək" ticarət mərkəzinin giriş hissəsindəki ərazidə yol təsərrüfatında olan qüsur səbəbindən avtomobillərə zərər dəyib. Bu səbəbdən də avtomobil sahibləri dövlət qurumları qarşısında iddia qaldıra və ya məhkəməyə müraciət edə bilərlər. Həmin orqanlar vətəndaşlara dəymiş zərəri ödəməlidirlər".

*"Ticarət mərkəzinə avtomobillərin girişi üçün 50 qəpik tələb olunur, həmin vəsaitlə "Sədərək" və "Binə"nin ərazisi və ora yaxın yollar təmir edilə bilər"*

Həmsöhbətimiz onu da əlavə etdi ki, həmin ticarət mərkəzinə avtomobillərin girişi üçün 50 qəpik tələb olunur. Nəzərə almaq lazımdır ki, həmin məkana gün ərzində yüzlərlə avtomobil daxil olur: "Sədərək" ticarət mərkəzinin rəhbərliyi avtomobillərin girişi hesabına yüksək məbləğdə pul qazanır. Həmin vəsaitlə ticarət mərkəzinə aid, eyni zamanda, onun yaxınlığındakı yolları təmir edə bilər. Təəssüf ki, adıçəkilən ticarət mərkəzinin rəhbəri bu məsələ ilə bağlı heç bir təşəbbüs irəli sürmür".

**Günel CƏLİLOVA**

**"Bakının mərkəzindəki bəzi ali təhsil müəssisələri şəhərin ətrafına köçürülə bilər". Bu barədə Bakı şəhərinin Baş Planı üzrə yanaşmaların müzakirəsində Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova bildirib. O qeyd edib ki, Mərdəkanın altmərkəz kimi nəzərdə tutulması tamamilə zəruridir.**




# Bakıdakı bütün universitetlər Xocasən gölünün yanına köçürüləcək

## *İlqar Orucov: "Universitetlərin Xocasən gölünün ətrafına deyil, kiçik şəhərlərin birinə köçürülməsi daha uyğun olar"*

Sadəcə, oranın gələcəkdə yaşayış tikintisi üçün zona kimi müəyyən edilməsi bir qədər təhlükə yaradır. "Hamımız bilirik ki, Mərdəkan istirahət zonasıdır. Mərdəkan məhz istirahət zonası kimi qalmalıdır. Mərdəkanın turizmin inkişafı, yaşıllıq, istirahət yeri kimi çox böyük potensialı var. Ona görə bu məsələyə bir daha baxılmasını xahiş edirik. Səsləndirdiyim fikirlər təkcə mənim yox, həm də universitetimizin bir sıra mütəxəssislərinin fikridir. Baş Planda ali təhsil müəssisələrinin Xocasən gölünün ətrafına köçürülməsi nəzərdə tutulur. Şəhərin mərkəzindəki ali təhsil müəssisələrinin transport problemlərinin həlli nəzərə alınaraq bir az kənara köçürülməsi və orada daha yaxşı, böyük şəraitin yaradılması məqsədəuyğundur. Amma bu zaman oradan metro xəttinin keçməsi də çox vacibdir".

Paytaxt ərazisinin mərkəzində mövcud olan ali təhsil müəssisələrinin Xocasən gölünün ətrafına köçürülməsi bəzi ekspertlər tərəfindən xoş qarşılansa da, bəziləri məsafənin uzaqlığı baxımından bu qərarın düzgün olmadığını bildirirlər.

Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, universitetlərin şəhərdən kənara, regionlara köçürülməsi uzun müddətdir müzakirə olunur: "Universitetlərin Xocasən gölünün ətrafına deyil, kiçik şəhərlərin birinə köçürülməsi daha uyğun olar. Ərazisi kiçik olan bir şəhərə ali təhsil müəssisələri köçürülərsə, ora tələbə şəhərciyi kimi inkişaf edər və o formada da tanınar. Qeyd edim ki, Avropanın bir çox ölkəsində universitetlər paytaxtdan kənarda olan kiçik şəhərlərdə salınır. Həmin ərazidə tələbə şəhəri kimi tanınır. Məlumat üçün bildirim ki, Xocasən gölünün ətrafında Moskva Dövlət Universitetinin kampusu tikilir. Xocasən gölü Bakıətrafı olsa belə, paytaxta çox yaxındır".

*"Universitetlərin şəhərin mərkəzində olması nəqliyyat sıxlığının yaranmasına səbəb olan amillərdən biridir"*

Həmsöhbətimiz qeyd etdi ki, universitetləri paytaxtın mərkəzindən kənara ona görə köçürmək istəyirlər ki, şəhərdə qeydə alınan sıxlıq aradan qalxsın: "Xocasən gölü də Bakıya yaxın olduğu üçün paytaxtda müşahidə olunan sıxlığın aradan qaldırılmasına gətirib çıxarmayacaq. Bu səbəbdən təhsil ocaqları kənarda salınarsa, daha yaxşı olar".

Təhsil eksperti onu da vurğuladı ki, Bakıda mövcud olan universitetlərin bəzisi müasir tələblərə cavab vermir: "Hər bir universitetin özünün geniş ərazisi olmalıdır. Ancaq ali təhsil müəssisələrinin, demək olar ki, əksəriyyətinin ərazisi yox dərəcəsindədir".

Ekspert hesab edir ki, Bakının Baş Planının yenidən hazırlanması paytaxtda qeydə alınan pərakəndəliyin aradan qalxmasına səbəb olacaq. Planda təhsil müəssisələrinin paytaxt ərazisindən kənara köçürülməsi qeyd olunmalıdır. Nəzərə almaq lazımdır ki, universitetlərin şəhərin mərkəzində olması nəqliyyat sıxlığının yaranmasına səbəb olan amillərdən biridir.

*Günel CƏLİLOVA*

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Baş Prokurorluğun mətbuat xidmətlərinin məlumatına görə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə "Tua-TT" MMC arasında 19 iyul 2016-cı il tarixdə bağlanmış müqaviləyə əsasən 480 min manat məbləğində tikinti işlərinin podratçı tərəfindən yerinə yetirilməməsi barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən daxil olmuş material Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.**



# Əmək... Nazirliyinin 480 min manatlıq işini yerinə yetirməyən şirkətdə həbslər aparıldı...

Qeyd edilən xüsusatlarla əlaqədar həmin vəzifəli şəxslər barəsində Cinayət Məcəlləsinin 179.3.2 (Mənimsəmə və ya israf etmə külli miqdarda törədildikdə) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb.

Aparılmış istintaqla müəyyən edilib ki, Alışanlı Tural Asif oğlu qardaşı Ülvi Alışanlının adından 24 avqust 2012-ci tarixdə"TUA TT" MMC yaradıb öz qulluq mövqeyindən istifadə edərək ona etibar olunmuş və öhdəsində olan özgə əmlakını - dövlət vəsaitini vahid qəsdlə təlama məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə Masallı rayonunda 2 ədəd 3 otaqlı, Lənkəran rayonunda 4 ədəd 3 otaqlı, Astara rayonunda 2 ədəd 3 otaqlı, Lerik rayonunda 4 ədəd 3 otaqlı və Yardımlı rayonunda 1 ədəd 3 otaqlı olmaqla, ümumilikdə 13 ədəd 3 otaqlı fərdi yaşayış evinin tikinti işlərinin satınalması ilə bağlı keçirilən tenderdə həmin MMC-nin adından iştirak edib, nəzərdə tutulan işləri əlavə dəyər vergisi (ƏDV) daxil olmaqla 893 min manat pul vəsaiti hesabına yerinə yetirməklə bağlı təklif verdikdən sonra tender komissiyasının 24 iyun 2016-cı il tarixli protokoluna əsasən qalib elan edilib.

Aparılmış istintaqla, həmçinin, T.Alışanlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə "TUA TT" MMC arasında bağlanmış 19 iyul 2016-cu il tarixli satınalma müqaviləsi üzrə 16 ay müddətinə həmin işlərin yerinə yetirilməsi məqsədilə dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin ehtiyat fondunun vəsaiti hesabına ayrılaraq nazirlik vasitəsilə həmin cəmiyyətin hesabına köçürülən ümumilikdə 756 min manat (ƏDV ilə birlikdə 893 min manat) məbləğində pul vəsaitinin bir hissəsini müxtəlif rayonlarda fərdi yaşayış evlərinin tam və ya qismən tikilməsinə istifadə edib, qalan 190 min manat pul vəsaitini ayrı-ayrı şəxslərin bank hesablarına köçürüb şəxsi ehtiyaclarına xərcləməklə öz qulluq mövqeyindən istifadə edərək vahid qəsdlə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə külli miqdarda ziyan vurmasına əsaslı şübhələr müəyyən edilib.

Cinayət işi üzrə T.Alışanlı Cinayət Məcəlləsinin 179.3.2-ci (Mənimsəmə və ya israf etmə külli miqdarda törədildikdə) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda iş üzrə qeyd olunan qanunsuz halların tam, hərtərəfli yoxlanılmaqla təqsirli şəxslərin tam dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bəyan edir ki, sosial müdafiə sahəsində bu kimi cinayətlərin törədilməsinə səbəb və şərait yaradan halların müəyyən edilərək aradan qaldırılması və bu sahədə baş verən neqativ halların qarşısının alınması məqsədilə qabaqlayıcı tədbirlərin həyata keçirilməsi istiqamətində zəruri tədbirlərin görülməsi bundan sonra da təmin ediləcək.

№ 212 (4110) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

29 NOYABR 2019-cu il

www.baki-xeber.com

## Antarktidada bir kisə soğan tapıldı - 100 ildir xarab olmayıb



**"Antarctic Heritage Trust" qrupu Antarktidada "Diskaveri" komasında komanda üzvləri bir kisə qırmızı soğan tapıblar.**

"Medicina.az" bildirir ki, müayinələr göstərib ki, soğan orda 100 ildir qoyulub. Təxmin edilir ki, soğanı 1902-ci ildə britaniyalı tədqiqatçı Robert Skotun qrupu özü ilə gətirib. Maraqlıdır ki, soğan çürüməyib, kiflənməyib, sadəcə quruyub. Rəngi, forması, hətta ətrini də saxlayıb. Alimlər soğanın bu dərəcədə qalmasının səbəbini aşağı temperatur və buzlu klimatda görür. Uzaq yola çıxan dənizçilər həmişə özləri ilə çox miqdarda kisələrdə qırmızı soğan götürürdülər. Bu soğanla onlar həm sinqa xəstəliyini müalicə edir, həm soyuğa qarşı davamlı olur, həm də C vitamini mənbəyi idi.

## Yadplanetlilərlə bağlı sensasiyalı nüvə silahları ilə oynayırlar...

**"Paradiqma" Uçan Naməlum Obyektləri araşdırma qrupu inanılmaz iddia ilə çıxış edib.**

"Milli.Az" xəbər verir ki, yeni iddia Böyük Britaniyanın "Daily Star" qəzetində yer alıb. Araşdırma qrupunun məlumatına görə, yadplanetlilər dünyadakı nüvə silahları ilə oynayırlar. Onlar güclərini insanlara nümayiş etdirmək üçün nüvə silahlarını açıb-bağlayırlar. "Paradiqma"nın qurucusu Stiven Basset isə məsələni belə şərh edib: "Bu qədər güclü irq təhdid kimi yox, nüvə silahlarına qarşı olduğu üçün bunu edirlər. Biz insanlara "nüvə silahlarından niyə xilas olmaq istəmirsiniz?" demək istəyirlər". Basset bildirib ki, ABŞ hökuməti yadplanetlilərin ortaya çıxdığı anda Beynəlxalq Kosmik Stansiyanın yayımını dayandırır.

## Elan

İskəndərov Aydın İskəndər oğlunun adına, Bakı şəhəri, Nəsimi rayonu, M.Rəfili küçəsi, ev 21, mənzil 5 ünvanının qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Musayeva (Qurbanova) Rahilə Namaz qızının adına, Xəzər rayonu, Mərdəkan qəsəbəsi, "Bağlar massivi"nə aid 12 sot torpaq sahəsinin orderi itdiyi üçün etibarsız sayılır.

Hüseynov Sadiq Aydın oğlunun adına, Bakı şəhəri, Yasamal rayonu, N.Nərimanov pr. ev 55, mənzil 24 ünvanının texpasportu, qeydiyyat vəsiqəsi və digər sənədləri itdiyi üçün etibarsız sayılır.

Şahverdiyev Akif Abdulla oğluna 06.04.2011-ci tarixində Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti tərəfindən verilmiş MV № 0390 müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Lətifov Sadiq Şamil oğluna məxsus müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Salmanov Elbrus Süleyman oğluna məxsus JN 26695 "H" kod 00600066 torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Səfərli Pərviz Ədalət oğluna DİN tərəfindən verilmiş DQ №002245 hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Şükürlü Şəbnəm Barat qızına Bakı Slavyan Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## "Azercell"in dəstəyilə məktəblimiz beynəlxalq uğura imza atıb

**Ötən həftə Bolqarıstanın Şumen şəhərində İnformatika üzrə XI Beynəlxalq Payız Turniri təşkil olunub. Yarışda Bolqarıstan, Serbiya, Rumıniya, Rusiya, Ukrayna və digər ölkələrdən qatılan iştirakçılarla yanaşı, Azərbaycan məktəbliləri də öz biliklərini sınayıb. Gəncə şəhəri 15 nömrəli tam orta məktəbin şagirdi Əziz Hüseynov yarışda uğurlu nəticə göstərərək, gümüş medal qazanmağa müvəffəq olub.**

Məlumat üçün bildirək ki, İnformatika üzrə Payız Turniri 2001-ci ildən başlayaraq Şumen şəhərində keçirilir. 2009-cu ildən etibarən digər ölkələrin məktəbliləri də turnirə qatılmağa başlayıb.

Məktəblimizin bu uğurunda ölkəmizdə təhsilin inkişafına yönələn layihələri hər zaman dəstəkləyən "Azercell Telekom" MMC-nin də böyük rolu var. Belə ki, şagirdlər Təhsil Nazirliyi və "Azercell"in dəstəyilə təşkil olunan xüsusi mərkəzlərdə İnformatika fənni üzrə beynəlxalq olimpiadalara hazırlaşa, öz elmi potensiallarını nümayiş etdirə bilirlər.

Xatırladaq ki, "Azercell" cari ilin avqust ayında ölkəmizin evsahibliyi etdiyi 31-ci Beynəlxalq İnformatika Olimpiadasının rəqəmsal sponsoru qismində təmsil olunub. Olimpiadaya Azərbaycan komandası da daxil olmaqla, 88 ölkə və regiondan 600-dən çox şagird, müəllim və ekspertdən ibarət rəsmi nümayəndə heyəti qatılıb.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## "Nar" tələbələrin əmək bazarına inteqrasiyasına dəstək olur

**Gənclərin uğurlu karyera qurmalarına hər zaman dəstək olan "Nar" növbəti dəfə karyera sərgisində iştirak edib. Mobil operator Azərbaycan Texniki Universiteti (AZTU) və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin birgə təşkil etdiyi növbəti karyera sərgisində yer alıb.**

Tələbə və məzunların əmək bazarına çıxışını dəstəkləyərək mobil operator Əlavə Dəyər Xidmətləri (ƏDX), məhsulların idarə olunması, analitika və hesabatlar üzrə aparıcı mütəxəssis və illüstrasiya və qrafik üzrə dizayner vəzifələrinə sənəd qəbulu təşkil edib. Şirkət təmsilçiləri ilə birbaşa ünsiyyətdə olan tələbələr karyera imkanlarını dəyərləndirmək, həmçinin, bu şirkətlərin təcrübə proqramlarında iştirak barədə məlumat əldə etmək imkanı qazanıblar. "Nar" stendinə maraq böyük olub. Sərgidə tələbələrə 60-dan çox müəssisədən vakant iş yeri və təcrübə proqramları təklif olunub.

Qeyd edək ki, "Nar" korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində 2016-cı ildən Azərbaycan Texniki Universiteti (AzTU) ilə əməkdaşlıq edir. Bu əməkdaşlıq çərçivəsində universitetdə "Nar" GSM laboratoriyası yaradılıb. Laboratoriya tələbələrə GSM sahəsi üzrə təcrübi biliklər əldə etməyə imkan yaradır.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 8600-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.





**Qoç** - Maliyyə məsələlərinin həlli və büdcə planlaması üçün uyğun gündür. İşgüzar intuisiyanız çox güclüdür. Bir baxışdan hansı layihənin perspektivli, hansının uğursuz olduğunu dəqiq təyin edirsiniz.



**Buğa** - Risk etməyə, taleyinizi sınağa çəkməyə meyllisiniz. Xoşbəxtlikdən, bunun nəticələri pis olmayacaq, gözlədiyinizdən daha çox bəxtiniz gətirir. Maliyyə işlərində uğurlar mümkündür, sərfəli sövdələr bağlaya bilərsiniz.



**Əkizlər** - Çox enerjilisiniz, bir yerdə dayanmaq bilmirsiniz. Hansısa yeni bir işə başlamazdan əvvəl onu yaxşıca götür-qoy edin. Emosiyaların təsiri altında hərəkət edir, bununla vurnuxma, gərəksiz qayğılar yaradırsınız.



**Xərçəng** - Hissiyyatlı adamların həyatı sürətlə dəyişir, əvvəlki şübhələr və məyusluqlardan əsər-əlamət qalmır. Zəhmət çəkin - bəhrəsini görün! İmkanlar inanılmazdır, sadəcə, öz gücünüzə inanmağınız yetər.



**Şir** - Uzun müddət sizi irəliləməyə qoymayan emosional problemləri həll etməyin zamanı gəldi. Ətrafınızdakılara qarşı gerçək marağınız yeni tanışlıqlar qurmağa imkan verir: münasibətlər o qədər sürətli inkişaf edir ki, bəzən hətta özünüzü də qorxudur.



**Qız** - Bu günün hadisələri çoxdan qarşınıza qoyduğunuz məqsədlərə doğru bir pillələn olacaq. Ancaq ona bu qədər yaxın olmağınız sizi o qədər də sevindirmir: son dövr ərzində prioritetləriniz dəyişib və indi sizə tamamilə başqa şeylər lazımdır.



**Tərəzi** - Mürəkkəb məsələlərin həlli, birmənalı olmayan şəraitdən çıxış yolunun tapılması üçün münasib gündür. Bu gün ağlınıza gələn ideyalar həm təzəliyi, həm də gecikmədən reallaşdırıla bilmələri ilə diqqət çəkəcək.



**Əqrəb** - Bu gün inanılmaz addımlar atmağa qadirsiniz. Nə stereotiplər, nə adət-ənənələr, nə də ətrafınızdakıların xahiş-minnəti sizi fikirləşdiyinizi etməkdən döndərəcək. Həyatınız kökündən dəyişəcək, bu sizi sevindirəcək.



**Oxatan** - Vergi, sığorta, kreditlə məşğul olan idarələrin işçilərinin bəxti bu gün yaman gətirəcək. Yaranan imkandan istifadə edərək sizin üçün dəyərli olan adamlarla münasibətlərinizi düzəldin.



**Oğlaq** - Ünsiyyət üçün xoş gündür. Başqalarının istəklərinə qarşı diqqətlisiniz, onların arzularını və ehtiyaclarını nəzərə alırsınız. Nüfuzlu bir şəxsdə özünüz haqda xoş təəssürat yarada biləcəksiniz.



**Dolça** - Strateji məsələlərin həlli və uzunmüddətli planlaşdırma üçün münasib gündür. İntellektual potensialınız çox yüksəkdir, istənilən mürəkkəb situasiyadan çıxış yolu tapmağa qadirsiniz.



**Balıqlar** - Parlaq, maraqlı gündür. Maraq doğuran təkcə baş verən hadisələr deyil, sizin onlara münasibətinizdir. Sabit emosional fon gün ərzində gözəl əhvalı qoruyub saxlamağınıza kömək edəcək.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Video və səs yazısı vasitəsilə nəbzin tanınması xidməti təqdim edilib

**Rusiyanın "Neurodata Lab" şirkəti kompüter görmə texnologiyasının köməyi ilə videoçarx və səs yazısı üzrə insanın emosiyasını və nəbzini müəyyənləşdirməyə imkan verən xidmət təqdim edib.**

"İctnews.az" bildirir ki, şirkət bu texnologiyanı böyük müəssisələrə (bank, sığorta şirkətləri, telekommunikasiya operatorları, pərakəndə satıcılar və elmi laboratoriyalara) satır. Xidmət müştərilərin üz ifadələri və hərəkətləri üzrə onların emosiyasını təhlil edə bilər - platforma müxtəlif mağazalar üzrə statistikanı müqayisə edərək müxtəlif təkmilləşdirmələr təklif edə bilər. Platformanın işi kompüter görmə və süni intellekt texnologiyalarına əsaslanır. Sistem kadrları qiymətləndirir və üz ifadəsi, gözlərin hərəkəti, duruş, səs, danışıq və jestlər üzrə qiymətləndirmə aparır. Bundan sonra "Neurodata Lab" şirkətinin həlli insanın real vaxt rejimində nə hiss etməsi ilə bağlı öz proqnozunu verir.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.